# HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 47 (3285) Çərşənbə axşamı / 19-20 may 2020-ci il Qiyməti 40 qəpik





## Pensiya hüququ ilə bağlı mühüm dəyişiklik

**Pensiya ilə bağlı yeni qanun layihəsində pensiyaçıların maraqları nəzərə alınmaqla, heç bir istisna olmadan pensiyaçının əmək pensiyasının bir növündən başqa növünə keçmə hüququnun təsbit edilməsi nəzərdə tutulur.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən hafta.az-a verilən məlumata görə, hazırda qüvvədə olan "Əmək pensiyaları haqqında" Qanunun 34-cü maddəsinə əsasən, pensiyaçının yaşa görə pensiya növündən əlilliyə görə pensiya növünə keçirilməsi məhdudlaşdırılıb. Yəni yaşa görə pensiya alan şəxsin əlilliyə görə də pensiya hüququ yarandıqda, o, yaşa görə pensiyadan imtina edib əlilliyə görə pensiyaya çıxa bilməz.

Yeni qanun layihəsində nəzərdə tutulan dəyişiklik bu məhdudiyyəti aradan qaldırmağa yönəldilib. Yəni, hər hansı bir pensiyaçı öz seçiminə uyğun olaraq hüququ olan istədiyi digər pensiya növünə istisna olmadan keçə biləcək. Bu zaman pensiyaçının ərizəsinə ən geci 10 iş günü müddətində baxılmaqla onun digər pensiya növünə keçirilməsi və həmin pensiyanın hesablanaraq təyin edilməsi təmin olunacaq.

### Qəza

■ **Bərdədə ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib.** Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, mayın 18-nə keçən gecə rayon sakinləri İ.Mustafayevin idarə etdiyi "Nissan", F.Əliyevin idarə etdiyi "KIA" və Gəncə şəhər sakini T.Əliyevin idarə etdiyi "Opel" markalı avtomobillər Bərdə şəhəri ərazisində toqquşub. Nəticədə T.Əliyev və sərnişini Elgün Məmmədov, habelə F.Əliyevin sərnişini A.Əliyev xəstəxanaya yerləşdirilib, E.Məmmədov orada ölüb. Hadisə ilə bağlı Bərdə Rayon Polis Şöbəsi tərəfindən araşdırma aparılır.

■ **Bakının Yasamal rayonunda ölümlə nəticələnən yol-nəqliyyat hadisəsi baş verib. Qəza "20 Yanvar" dairəsi yaxınlığında, Müzəffər Həsənov küçəsində qeydə alınıb.** Ortayaşlı kişi hərəkətdə olan "Jeep" markalı avtomobilin qarşısına çıxıb, avtomobil onu vurub. Piyada aldığı xəsarətlərdən hadisə yerində ölüb. Əraziyə Yasamal Rayon Polis İdarəsinin əməkdaşları cəlb olunub, avtotexniki ekspertiza təyin edilib. İlkin baxış zaman üzərində şəxsiyyətini təsdiq edən sənəd olmadığından ölən şəxsin kimliyini müəyyən etmək olmayıb. Faktla bağlı araşdırma aparılır.

### Qarət

■ **Mingəçevir şəhərində maskalı şəxslər evə basqın edib. Hafta.az-ın məlumatına görə, hadisə şəhərin A.Puşkin küçəsi, 37 saylı mənzildə baş verib.** 3 nəfər naməlum şəxs evin həyat otağının nəfəsliyindən mənzilə daxil olarkən ev sahibi ilə rastlaşıblar. Həmin şəxslər ev sahibi Rəna Allahverdiyevaya və onun həyat yoldaşı Mahir Allahverdiyevə hücum edərək hər iki şəxsə müxtəlif bədən xəsarətləri yetirib hadisə yerindən qaçıblar. Hüquq-mühafizə orqanları əməkdaşları hadisə yerinə baxış keçirərək zəruri istintaq hərəkətləri aparıb. Hazırda həmin şəxslərin tapılması istiqamətində əməliyyat-axtarış tədbirləri davam etdirilir.

■ **Bakıda marşrut avtobusunun sürücüsü qarət olunub. Hafta.az-ın məlumatına görə, hadisə Binəqədi rayonu ərazisində, Bakı Beynəlxalq və Şəhərlərarası Avtovağzal Kompleksində qeydə alınıb.** 91 saylı xətt marşrutu üzrə hərəkətdə olan avtobusun sürücüsünün 60 manat pulu oğurlanıb. Binəqədi rayon Polis İdarəsinin Post-Patrul Bölüyü əməkdaşlarının keçirdiyi əməliyyat-axtarış tədbirləri nəticəsində əvvəllər məhkum olunmuş Xırdalan şəhər sakini, 1988-ci il təvəllüdlü Bilal Əsədov tutulub. Faktla bağlı Binəqədi rayon Polis İdarəsində cinayət işi başlanıb

### Hadisə

■ **Paytaxtın Xətai rayonunda ölüm hadisəsi baş verib. Hadisə rayonun NZS qəsəbəsində qeydə alınıb.** Rayon sakini İsmayıl Hüseynov ehtiyatsızlıqdan yaşadığı evin damından yıxılıb. Hadisə yerinə "təcili yardım" briqadası gəlsə də, yaralının həyatını xilas etmək mümkün olmayıb. Faktla bağlı araşdırma aparılır.

# Məscidlərin açılması sanitar-epidemioloji vəziyyətdən asılıdır



***"Bayram namazları ilə bağlı məscidlərin açılması hələ qadağandır". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov bildirib. İ. Məmmədov deyib ki, növbəti həftə vəziyyətin necə olacağı məlum deyil: "Hər şey sanitar-epidemioloji vəziyyətdən asılıdır. Hazırkı imkanlarımız bugünkü vəziyyəti idarə etməyə imkan verir. Əgər yoluxma artarsa, yenidən sərtləşmə ola bilər".***

İ. Məmmədov qeyd edib ki, xaricdən gələnlər arasında yoluxmaların səviyyəsi yüksəkdir, 20 faizə, hətta 30 faizə çatır: "Məsələn, Ukraynadan sonuncu gələn təyyarədə 120 nəfərdən 29-da testlər pozitiv olub. Deməli, təyyarədə gələnlərin hamısı karantinə götürülməlidir. Rusiyadan gələnlərin arasında isə yoluxma 20 faizdir". "Naxçıvan-Bakı arasındakı gediş-gəlişə qoyulan məhdudiyyət gediş-gəlişin texniki cəhətdən yerinə yetirilib-yetirilə bilməməsindən asılı deyil". İbrahim Məmmədov bildirib. O deyib ki, insanların təhlükəsizliyi, virusun qarşısının alınması üçün gediş-gəliş məhdudlaşdırılıb: "Amma ən zəruri hallarda hərbçilər gedib-gəlirlər və uçuş həyata keçirilir". "Bakı və Sumqayıtda işləyən və rayon qeydiyyatında olanların buraya girişinə məhdudiyyət yoxdur. Karantin rejiminin əvvəlindən belə mexanizm yaradılıb". İbrahim Məmmədov deyib.

## Açıqlama

Toyların qadağan edilməsindən şadlıq evlərinin sahiblərinə kompensasiya ödənilib-ödənilməməsinə gəlincə, İ. Məmmədov qeyd edib ki, pandemiyadan zərər çəkən sektorlara yardım göstərilməsi barədə Prezidentin qərarı var: "Nazirlər Kabineti də müvafiq Tədbirlər Planı hazırlayıb". "Yoluxma təhlükəsi ilə bağlı repetitorluqla bağlı fərdi tədrisə icazə verilib". İbrahim Məmmədov bildirib. İ. Məmmədov deyib ki, gələcəkdə vəziyyət dəyişsə, bu qərara yenidən baxıla bilər: "Hazırda qrup şəklində virusun yoluxma ehtimalı daha yüksək olduğu üçün repetitorluq zamanı qrup şəklində məşğul olmağa qadağa qoyulub".

"Bu gün restoranların saat 18:00-dan sonra işləməsi barədə qərar yoxdur". İbrahim Məmmədov bildirib. "Bu günə olan qərar budur ki, restoran və kafelər saat 18:00-a qədər işləyə bilər. Növbəti mərhələ vəziyyətdən asılıdır", - deyə o əlavə edib. "Bütün sahələrin açılması arzuolunandır". İbrahim Məmmədov deyib. İdman zallarının açılışı ilə bağlı sualı cavablandıran qurum rəsmisi bildirib ki, bütün sahələrin fəaliyyəti mərhələli şəkildə bərpa olunacaq:

ardı səh. 3



# 60 günlük karantindən sonra Bakı

**Dünən gecə saat 00:00-dan karantin rejimi qismən yumşaldıldı. İki-üç saatlıq icazə ilə bayıra çıxmaq yasağı aradan götürüldü.**

Artıq 60 günlük aradan sonra hər kəs sərbəst şəkildə bayıra çıxa, park və xiyabanlarda istirahət edə, kafe və restoranlarda əylənə bilər. Təbii ki, axşam saat 6-ya kimi...

Elə bu minvalla şəhərin canına düşdük. Karantin rejiminin yumşaldılmasından sonra paytaxtda canlanma varmı, yoxmu, - deyə öyrənməyə çalışdıq. Gördüklərimizi hafta.az-ın obyektivinə də köçürməyə çalışdıq. Evdən bayıra çıxmamısınızsa, şəhərin karantindənsonrakı halından xəbəriniz yoxdursa, o zaman monitora bir qədər də yaxın əyləşin. İlk dayanacağımız, heç şübhəsiz, Dənizkənarı Milli Park oldu. Çoxdandı ətrafı hasarlanmış, içərisində əsgər və polislərin gəzişdiyi, o baş-bu başa gedib gəldiyi bulvarın son durumunu gözlərimizlə görmək istədik.

Əvvəla, onu deyək ki, bulvardakı əyləncə mərkəzləri hələ də tam olaraq fəaliyyətə başlamayıb. Çayxanalar isə yay rejiminə keçiblər. Açıq hava altında stollar və stullar düzülüb. Di gəl ki, müştəri yoxdur. Səbəbini xidmətçilərdən soruşduq. Dedilər ki, həftənin ilk iş günüdür, adamın az olması normaldır. Müştərilər isə axşama gözləyirlər.

Dəniz kənarında gitara çalanlar, sevgililərinə gül alanları isə ümumiyyətlə görmədik. Təkcə gülsatanlar qaraçı qızları və şəkil çəkən qocalar ortalıqda dolaşırdılar. Bir də ki üç-beş ərəb...

ardı səh. 3

GÜNDƏM

## Çin son 3 ayda 50 milyard qoruyucu maska ixrac edib



**Çin dünyada tüğyan edən yeni növ koronavirus pandemiyası şəraitində tibbi avadanlıq və ləvazimat ixracını artırıb.**

Hafta.az bildirir ki, martın 1-dən bəri 50,9 milyard ədəd qoruyucu maska, 216 milyon qoruyucu geyim, 81,03 milyon eynək, təxminən 1 milyard cüt əlcək ixrac edib. Bundan başqa, xarici ölkələrə 162 milyon test dəsti, 26,43 milyon ədəd infraqırmızı termometr, 71 min 700 süni tənəffüs aparatı göndərilib.

Bildirilir ki, pandemiya ilə mübarizədə istifadə üçün avadanlıq və ləvazimatların ixracı apreldən başlayaraq sürətlə çoxalıb. Belə ki, aprelin əvvəlində gündəlik ixrac 140 milyon dollar təşkil edirdisə, hazırda bu rəqəm 500 milyon dollara yaxınlaşır.

GÜNÜN SİTATI

*"Bu çağırışlara Bakı Şəhər İcra Hakimiyyətinin strukturları hazır oldular. Bunun səbəbi Prezident İlham Əliyevin rəhbərliyi ilə güclü iqtisadiyyata malik Azərbaycan dövləti modelinin yaranmasıdır"*



**Eldar Əzizov,**
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

**Günün fotosu...**



Sənin üçün çox darıxmışam...

"HƏFTƏ İÇİ"ndən



### Pirallahıda pandemiyaya qarşı mübarizə tədbirləri davam etdirilir

Bu işlərin həyata keçirilməsi üçün Pirallahı rayon Mənzil Kommunal Təsərrüfat Birliyinə 60-dan çox canlı qüvvə cəlb olunub

bax səh. 7



### "Heyvanlar aləmi haqqında" qanuna dəyişikliklər gözlənilir

Bu istiqamətdə aparılan ekoloji ekspertiza qaydaları dəyişdirilə bilər

bax səh. 6

# Sərəncam



**Prezident İlham Əliyev mayın 18-də "Ağsu rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncam imzalayıb.** Hafta.az xəbər verir ki, Ağsu rayonunda əkin sahələrinin su təminatının yaxşılaşdırılması üçün Qazanarx kanalının yenidən qurulması məqsədilə "Azərbaycan Respublikasının 2020-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.21-ci yarımbəndində göstərilmiş məbləğin 3,3 milyon manatı Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılıb.

# Putin Prezident İlham Əliyevə telefonla zəng edib



**Mayın 18-də Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə telefonla zəng edib. Bu barədə hafta.az-a Prezidentin mətbuat xidmətindən bildirilib.**

Telefon söhbəti zamanı dövlət başçıları koronavirus pandemiyası ilə mübarizə sahəsində görülən işlərdən danışıb, bu istiqamətdə ölkələrimizin sərhəd-keçid məntəqələrində qarşılıqlı əlaqələndirmə şəraitində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi aparıblar. Dövlət başçıları Azərbaycanla Rusiya arasında strateji tərəfdaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayaraq əməkdaşlığımızın postpandemiya dövründə inkişaf perspektivlərini də müzakirə ediblər.

# Elmar Məmmədyarovun həmsədrlərlə videokonfrans formatında görüşü keçirilib

**18 may tarixində Xarici İşlər naziri Elmar Məmmədyarov ATƏT-in Minsk Qrupunun həmsədrləri, İqor Popov (Rusiya), Stefan Viskonti (Fransa) və Endryu Şafer (ABŞ) və ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə video-konfrans formatında görüş keçirib.**

XİN-dən hafta.az-a verilən məlumata görə, görüşdə, həmçinin Fransa və ABŞ həmsədrlərinin köməkçiləri iştirak ediblər. Görüşdə tərəflər, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tənzimlənməsi prosesinin cari vəziyyətini, eləcə də qarşıdan gələn aylarda, qlobal pandemiya sonrası atılacaq addımları müzakirə ediblər. Tərəflər, pandemiya zəiflədikdən sonra Azərbaycan və Ermənistan Xarici İşlər nazirlərinin Minsk Qrupu həmsədrlərinin vasitəçiliyi ilə növbəti görüşünün keçirilməsi vaxtının və yerinin müəyyən edilməsi üzrə razılaşıblar.

# Azərbaycanda daha 113 nəfər koronavirusa yoluxub, 40 nəfər sağalıb, 1 nəfər vəfat edib

**Dünən koronavirusa yeni yoluxmaların sayı 113, sağalan xəstələrin sayı 40 nəfərdir, 1 nəfər koronavirusdan ölüb. Hazırda xəstəxanalarda müalicə edilən aktiv xəstələrin sayı 1 333 nəfər olub. Ümumilikdə ölkədə koronavirusa ümumi yoluxmaların sayı 3 387 nəfərə çatıb.**

"Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi"nin (TƏBİB) şöbə müdiri Yaqut Qarayeva Nazirlər Kabineti yanında Operativ Qərargahın brifinqində bildirib.

Onun sözlərinə görə, ölkədə bundan sonra vəziyyətin tibbi baxımdan necə olacağı yalnız bizim özümüzdən asılıdır. Parklarda mütləq maskalardan istifadə edilməlidir:

"Xəstə sayı artdıqca onlara tibbi baxımdan yardım göstərmək də çətinləşə bilər. Bu gündən karantin qaydaları daha da yumşaldılır. Amma biz həkimlər daha çətin işə hazır olmalıyıq. Bunu statistika da göstərir. 11-17 mayda 755 yoluxma olub. Bir həftə ərzində bu qədər yoluxma olmayıb.

Məhdudiyyətlər götürüldükdən kimi yoluxmaların sayı artdı. Bu, bizim sosial məsuliyyətimizin olmadığını göstərir. Bu günə qədər dövlət tərəfindən bütün tədbirlər görülüb. Biz də sosial məsuliyyəti hiss etməliyik".

HƏFTƏ İÇİ
GÜNDƏLİK İCTİMAİ-SİYASİ QƏZET

Təsisçi və baş redaktor:
Sevinc Seyidova

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), "Həftə içi"nin kompüter mərkəzində yığılır, səhifələnir və "CBS" mətbəəsində çap olunur. Qəzet həftənin 5 günü çıxır.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2505

"Həftə içi" nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X

Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Pandemiya bütün ölkələrdə hadisələrin gedişatına öz təsirini göstərib

***Mayın 18-də Moldova tərəfinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Moldova Respublikasının Prezidenti İqor Dodon arasında videokonfrans formatında görüş keçirilib. Hafta.az xəbər verir ki, Moldova Prezidenti İqor Dodon dövlətimizin başçısı İlham Əliyevi salamlayaraq dedi:***



- Sabahınız xeyir.

Prezident İlham Əliyev: Sabahınız xeyir.

Prezident İqor Dodon: Hörmətli cənab Prezident, hörmətli dostumuz. Sizinlə heç olmasa belə rejimdə ünsiyyət qurmaq imkanına görə çox şadam. Əvvələn, Sizi ötən böyük bayram - Qələbə Günü münasibətilə təbrik etmək istərdim. Həmçinin pandemiyaya qarşı mübarizədə bizə kömək göstərmək barədə qəbul etdiyiniz qərara görə təşəkkürümü bildirmək istərdim. Bir neçə gün bundan əvvəl, ötən həftə biz xüsusi təyyarə ilə Sizin göndərdiyiniz yardımı qəbul etdik.

Bütün xalqımız adından Sizə təşəkkürümü bildirirəm ki, Bakıdan olan qardaşlarımız bu ağır vəziyyətdə bizə kömək etmək qərarına gəliblər. Bilirəm ki, Sizin ölkədə də pandemiya ilə mübarizə aparılır. Onu da bilirik ki, Siz bunun öhdəsindən layiqincə gəlirsiniz. Ümidvaram ki, əməkdaşlığımızın bu və digər bəndləri barədə bu gün biz telekonfrans rejimində söhbət açacağıq.

Prezident İlham Əliyev: Bəli. Sizi görməyimə çox şadam, hörmətli cənab Prezident. Mən də Sizi və Sizin şəxsinizdə bütün Moldova xalqını ötən Qələbə bayramı münasibətilə təbrik etmək istərdim. Bizim ölkələrimizdə bu bayram həmişə çox əziz tutulur. Bizim Qələbəmiz uğrunda canlarından keçənlərin xatirəsini əziz tutmağımız fərəhlidir. Hazırda sağ olanlar, - düzdür, onların sayı getdikcə azalır, - ölkələrimizdə böyük hörmətə sahibdirlər. Əlbəttə ki, biz ikitərəfli planda daim aktiv qarşılıqlı fəaliyyətə istiqamətlənmişik. Mən sizinlə həm Bakıda, həm də beynəlxalq məkanlarda görüşlərimizi xatırlayıram. Buna görə də Azərbaycanın bu çətin gündə Moldovaya həmrəylik göstərməsi təbiidir. Çünki məhz çətin vaxtda bir-birinə dəstək göstərilməlidir. Hamıda hər şey yaxşı olanda hamı bir-birini təbrik edir və uğurlarına sevinir. Lakin ağır dəqiqədə, əlbəttə ki, imkan daxilində biz bir-birimizi dəstəkləməliyik. Mən Sizin bununla bağlı məktubunuza və həmçinin bu gün bunu qeyd etdiyinizə görə təşəkkür edirəm.

Əlbəttə ki, pandemiya bütün ölkələrdə hadisələrin gedişatına, o cümlədən beynəlxalq siyasət məsələlərinə öz təsirini göstərib. Lakin müasir texnologiyalar fəal işləməyə və hətta bu rejimdə ünsiyyət qurmağa imkan verir. Beləliklə, əminəm ki, bugünkü müzakirəmiz də çox faydalı olacaq və nəticəyə istiqamətlənəcək.

Söhbət zamanı dövlət başçıları koronavirus pandemiyasi ilə mübarizə sahəsində həyata keçirilən tədbirlər barədə fikir mübadiləsi apardılar, pandemiyanın sosial-iqtisadi fəsadlarının aradan qaldırılması istiqamətində gələcəkdə görüləcək işlərdən danışdılar.

Prezident İlham Əliyev və Prezident İqor Dodon ikitərəfli münasibətlərimizin inkişafından məmnunluq ifadə edərək siyasi əlaqələrin yaxşı səviyyədə olduğunu qeyd etdilər.

Söhbət zamanı dövlət başçıları pandemiya başa çatdıqdan sonrakı dövrdə ölkələrimiz arasındakı əməkdaşlığın müxtəlif sahələrdə inkişaf etdirilməsi məsələlərinə toxunaraq bildirdilər ki, ticarət, iqtisadiyyat, nəqliyyat, energetika və digər sahələrdə əlaqələrimizin genişləndirilməsi, eləcə də investisiya layihələrinin həyata keçirilməsi üçün əlverişli imkanlar var.

Prezidentlər bu baxımdan postpandemiya dövründə hökumətlərarası komissiyanın iclasının keçirilməsinin iqtisadi əməkdaşlığımızın möhkəmlənməsi işinə töhfə verəcəyini vurğuladılar. Dövlət başçıları, eyni zamanda, ölkələrimizin biznes dairələri arasında əlaqələrin genişləndirilməsi və gələcəkdə biznes forumun keçirilməsi perspektivlərini də müzakirə etdilər. Moldova Prezidenti dövlətimizin başçısını ölkəsinə rəsmi səfərlə bağlı dəvətini bir daha diqqətə çatdırdı. Prezident İlham Əliyev də öz növbəsində, münasib vaxtda Moldova Prezidenti İqor Dodonu Azərbaycana rəsmi səfərə dəvət etdi.

# Baş prokurorun köməkçiləri vəzifədən azad ediliblər

**Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluq orqanlarında islahatların dərinləşdirilməsi, o cümlədən kadrlar işinin səmərəliliyinin artırılması məqsədilə işlər davam etdirilir.**

Xəbər verildiyi kimi, Bas? Prokurorlug?un Maddi-texniki təminat şöbəsinin rəisi Niyaz Məmis?ov, Xətai rayon prokuroru Yusif I?ldırımzadə, Sabunc?u rayon prokuroru Ceyhun S?irinov, Nəsimi rayon prokuroru Salman Məmmədli, Qəbələ rayon prokuroru Məqsəd Orucov, Yevlax rayon prokuroru Elxan Pənahov "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq prokurorluqda qulluqda olmanın yaş həddinə çatdıqlarına görə Baş prokuror Kamran Əliyevin imzaladığı müvafiq əmrlərlə tutduqları vəzifədən azad edilməklə prokurorluq orqanlarında qulluq keçmələrinə xitam verilib. Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, prokurorluq orqanlarında səmərəli fəaliyyətlərinə görə Azərbaycan Prokurorluğunun Fəxri fərmanı ilə təltif edilən həmin prokurorluq işçiləri Baş Prokurorluğa dəvət olunublar. Onlara Fəxri fərmanlar təqdim edilib. Bu məqsədlə keçirilən tədbirdə Baş prokuror Kamran Əliyev prokurorluq orqanlarında uzunmüddətli peşəkar fəaliyyətlərinə görə onlara təşəkkürünü bildirib.

Səmimi görüşə görə minnətdarlıqlarını bildirən sabiq prokurorluq işçiləri fəaliyyətlərinə verilən yüksək qiymətə görə dövlətimizin başçısına və Baş Prokurorluğun rəhbərliyinə təşəkkür edərək xidmət illəri ərzində qazandıqları təcrübəni prokurorluğun gənc əməkdaşlarından əsirgəməyəcəklərini ifadə ediblər.

Prokurorluq orqanlarında fəaliyyətin səmərəliliyini təmin etmək məqsədilə kadr islahatları aparılıb. Belə ki, Baş prokurorun imzaladığı müvafiq əmrlərlə Baş prokurorun böyük köməkçiləri Toğrul Muxtarov, Namiq Məmmədov, köməkçiləri Natiq Eyvazov, Fərid Dadaşov, Elnur Eyvazov və Elvin Bəşirli tutduqları vəzifədən azad ediliblər. Toğrul Muxtarov Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini, Natiq Eyvazov Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin İttihamın təşkili və təhlili şöbəsinin rəisi, Namiq Məmmədov Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru, Fərid Dadaşov Baş Prokurorluğun Təşkilat-analitik idarəsinin prokuroru, Elnur Eyvazov Baş Prokurorluğun Beynəlxalq əlaqələr idarəsinin böyük prokuror-metodisti, Elvin Bəşirli isə Yasamal rayon prokurorunun böyük köməkçisi vəzifələrinə təyin olunublar. Prokurorluq orqanlarının kadr korpusunun peşəkarlıq və mənəvi keyfiyyətlərinə görə işçilərlə komplektləşdirilməsi istiqamətində işlər bundan sonra da davam etdiriləcək.

# Dənizkənarı Milli Parkda masalar arasında məsafə 2 metrdən az olmamalıdır

**"İki ay ərzində Bakı bulvarında dezinfeksiya işləri mütəmadi aparılıb". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Dənizkənarı Bulvar İdarəsinin rəisi İlqar Mustafayev bildirib.**

İ. Mustafayev deyib ki, bulvarda müxtəlif nadir bitkilər var, bulvar dövlət tərəfindən qorunur: "Ötən dövrdə bu bitkilərə də qulluq edilirdi. Bu gün saat 00.00-dan bulvar açılıb. Bulvarda 10 nəfərdən artıq toplaşma olmamalıdır. İnsanlar ictimai iaşə obyektlərində sosial məsafəni gözləməlidir. Masaların arasında məsafə 2 metrdən, masalarda insanlar arasında məsafə 1 metrdən az olmamalıdır. Biz buna nəzarət edəcəyik".

Dənizkənarı Bulvar İdarəsinin rəisi qeyd edib ki, əyləncə, attraksionlar və idman qurğuları, uşaq əyləncə qurğuları fəaliyyət göstərməyəcək: "Ümidvaram ki, hər birimiz məsuliyyəti dərk edəcəyik".

"4 attraksion, 4 ictimai iaşə obyekti bulvardan götürülüb". Bunu Dənizkənarı Bulvar İdarəsinin rəisi İlqar Mustafayev bildirib. İ. Mustafayev deyib ki, ictimai iaşə obyektlərinin sahibləri ofisiantların əllərindəki əlcəklərin gün ərzində bir neçə dəfə dəyişdirilməsinə nəzarət etməlidirlər.

✍ *Hafta.az*

# XİN Laçının işğalının 28-ci ildönümünü ilə əlaqədar açıqlama yayıb

**Azərbaycan Respublikasının Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 28-ci ildönümünü ilə əlaqədar Xarici İşlər Nazirliyi (XİN) Mətbuat xidməti idarəsi açıqlama yayıb. XİN-dən hafta.az-a daxil olan açıqlamada deyilir:**

"18 may tarixində Azərbaycanın Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğalının 28 ili tamam olur.

Keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibinə daxil olmayan Laçın rayonunun işğalı nəticəsində 237 nəfər həlak olub, 67 nəfər isə itkin düşüb. Bölgənin əhalisi etnik təmizləməyə məruz qalıb və hazırda 77 700 nəfər Laçın sakini Azərbaycanın müxtəlif bölgələrində məcburi köçkün qismində yaşayır.

Ermənistan Respublikasının Azərbaycan Respublikasına qarşı təcavüz siyasətinin davamı olan bu işğal rayonda dövlət və özəl mülkiyyətə ciddi zərər yetirib. Belə ki, 217 mədəniyyət, 101 təhsil, 142 səhiyyə müəssisəsi, 462 ticarət, 30 rabitə, 2 avtonəqliyyat və müxtəlif təyinatlı istehsal müəssisələri məhv edilib. Həmçinin yerli və dünya əhəmiyyətli çoxsaylı tarixi abidə vandalizmə məruz qalıb. O cümlədən, 6-cı əsrə aid Alban Ağoğlan məbədi, 14-cü əsrə aid Məlik Əjdər türbəsi, Qaraqışlaq kəndində məscid, Zabux kəndində qədim qəbiristanlıq viran edilib; Laçın Tarix Muzeyi və onun qızıl, gümüş və tunc sikkələrdən ibarət qədim kolleksiyası talan edilib.

Təcavüzkar Ermənistan işğal etdiyi digər Azərbaycan ərazilərində olduğu kimi, Laçın rayonunda da beynəlxalq humanitar hüququ, o cümlədən Cenevrə Konvensiyaları ilə üzərinə düşən öhdəliklərini kobud şəkildə pozaraq bu ərazidə qeyri-qanuni fəaliyyəti davam etdirir. Coğrafi adlar dəyişdirilir, rayonun təbii resursları talan edilir, qanunsuz infrastruktur dəyişiklikləri həyata keçirilir, burada məqsədyönlü məskunlaşma siyasəti aparılaraq bölgənin demoqrafik tərkibi dəyişdirilir.



Məlum olduğu kimi, Avropa İnsan Hüquqları Məhkəməsinin "Çıraqov və digərləri Ermənistana qarşı" işi üzrə Azərbaycanın Laçın rayonundan məcburi qovulmuş Azərbaycan vətəndaşlarının xeyrinə 2015-ci il 16 iyun tarixli qərar qəbul edilərək onların İnsan Hüquqları və Fundamental Azadlıqların qorunmasına dair Konvensiya üzrə mülkiyyət hüququ, şəxsi və ailə həyatına hörmət kimi hüquqlarının pozulduğunu təsbit edib. Həmçinin, bu qərarın 19-20-ci paraqraflarında Laçın rayonu, ələlxüsus Laçın şəhərinin hərbi hücuma məruz qalması, 1992-ci il may ayının ortalarında Laçının havadan bombardman edilməsi və bunun nəticəsində çoxlu sayda evlərin dağıdılması, şəhərin talan edilməsi və yandırılması, hərbi münaqişə dövründə Laçın və ətraf kəndlərin tamamilə dağıdılması öz təsdiqini tapıb.

Azərbaycanın ərazi bütövlüyü, suverenliyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu bir daha təsdiq edərək işğalçı qüvvələrinin zəbt olunmuş ərazilərdən dərhal, qeyd-şərtsiz və tam çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələri, habelə digər beynəlxalq təşkilatların çoxsaylı qərar və qətnamələrinə məhəl qoymayan Ermənistan, münaqişənin sülh yolu ilə həlli pərdəsi arxasında Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarında işğala əsaslanan status-quo rejimini möhkəmləndirməyə çalışır və Azərbaycanın işğal olunmuş ərazilərinin ilhaq edilməsi siyasətini yürüdür.

Lakin dəyişməyən bir həqiqət var; Laçın və işğal olunmuş Dağlıq Qarabağ və ətraf digər rayonlar da daxil olmaqla Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi beynəlxalq ictimaiyyət tərəfindən tanınır və Azərbaycan ərazilərinin işğalının nəticələri birmənalı şəkildə rədd edilir. Azərbaycan ərazilərinin hərbi işğal altında saxlanılması heç zaman Ermənistanın güddüyü siyasi nəticələri verməyəcəkdir. Azərbaycanın beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü müzakirə mövzusu olmayıb və ola da bilməz.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üzrə aparılan danışıqların məqsədi münaqişənin nəticələrinin aradan qaldırılması, beləliklə də Azərbaycan torpaqlarının işğalına son qoyulması və etnik təmizləməyə məruz qalmış məcburi köçkünlərin fundamental hüquqlarının bərpa edilməsidir. Beynəlxalq hüquq, BMT Nizamnaməsi, Helsinki Yekun Aktı və Paris Xartiyasında əks olunan norma və prinsipləri münaqişənin həlli üzrə aparılan danışıqlar prosesinin əsasını təşkil edir. Ermənistanın danışıqlar prosesinin əsassız şəkildə, yalan və saxtakarlıqla uzatması cəhdləri qəbuledilməzdir və bölgədə sülhün təmin olunmasına başlıca maneədir.

Münaqişənin ağır fəsadlarının aradan qaldırılması beynəlxalq ictimaiyyətinin öhdəliyi olmaqla yanaşı, BMT Nizamnaməsində təsbit edildiyi kimi Azərbaycan dövlətinin ayrılmaz hüququdur".

# Paşinyanın faşist babası ilə bağlı susqunluğu Rusiya mətbuatında

***Rusiyanın "Lenta.ru" internet-nəşrinin dərc etdiyi "Babanın sirri" adlı materialda müəllif Konstantin Lyapunov Nikol Paşinyanın babasının həqiqətdə kimin tərəfində vuruşmasını araşdırır. Materialda qeyd olunur ki, Ermənistanın baş naziri Nikol Paşinyanın babasının Böyük Vətən müharibəsi illərində faşistlərlə ehtimal olunan əməkdaşlığı səbəbindən baş verən qalmaqalın Rusiya mediasında və beynəlxalq KİV-lərdə müzakirəsi davam edir.***



"Memorial" ümumiləşdirilmiş məlumat bankının informasiyasına görə hansısa Nikolay Paşinyan həqiqətən alman vermaxtının erməni legionunda xidmət edən sıravi əsgər kimi Qızıl Orduya qarşı vuruşub və 1943-cü ildə həlak olub. Məlum olduğu kimi, mayın 9-da Ermənistanın baş naziri özünün "facebook" səhifəsində babasının fotoşəklini bölüşüb. Erməni jurnalistlər Paşinyanın babası barədə informasiyanı yoxlayaraq, faşistlər tərəfində vuruşmuş hansısa Nikolay Paşinyanı tapıblar.

Baş nazir özü danışıb ki, babası Nikol Paşinyan cəbhəyə gedəndə onun atasının cəmi bir yaşı vardı. Ailədə yalnız bir neçə fotoşəkil və babası haqqında az sayda söhbətlər yadda qalıb. Baba Nikol Paşinyanın döyüş yolu barədə yalnız bu məlum idi ki, o, 138-ci diviziyanın 554-cü atıcı alayının serjantı olub. Bəzi sənədlərdə onun 1943-cü ilin fevralında həlak olması, digər sənədlərdə - itkin düşməsi göstərilir. Bir versiyaya görə Stalinqrad yaxınlığında, digərlərində - Krımda. Nəvə Paşinyan belə vəziyyətdə susur və danışmağa tələsmir ki, bu da açıq-aşkar onun xeyrinə deyil.

Nəşr yazır ki, vermaxtın erməni legionu respublika tarixində kədərli səhifə olaraq qalmaqdadır. İlkin olaraq bu qruplaşmanın sayı 8 min nəfər təşkil edib, daha sonra 30 minədək artıb. Bölmənin əsas hissəsinə Qızıl Ordunun düşmən tərəfinə keçən döyüşçüləri, bir qayda olaraq, hərbi əsirlər daxil idi. Legiona Drastamat Kanayan (general Dro kimi məşhur olan) rəhbərlik edirdi, legionerlərin təlimləri isə SS-dən olan hərbi rəislərin nəzarəti altında keçirdi. Nasistlər erməniləri Almaniyanın qələbəsindən sonra Ermənistana müstəqillik vermək kimi vədlərlə legiona cəlb edirdilər.

Müəllifin fikrincə, Paşinyanın əcdadı ilə bağlı əhvalat erməni hakimiyyətinin digər hərəkətləri ilə də mənfi çalarlar kəsb edir. Bunların ən parlaq nümunələrindən biri - Üçüncü reyxlə əməkdaşlığı sübuta yetirilmiş Qaregin Njdenin abidəsi ilə bağlı insidentdir. 1940-cı ildən başlayaraq o, erməni batalyonlarının yaradılmasında vermaxta kömək edib, daha sonra Berlində yaranmış erməni milli şurasına daxil olub. Nəticədə o, həbs edilib və ömrünü Vladimir həbsxanasında başa vurub.

Məqalədə qeyd olunur ki, "əgər əvvəllər Njdenin abidələrinin qorunub saxlanmasına münasibətdə Paşinyanın mövqeyi sadəcə erməni əhalisinin ictimai rəyinə elementar hörmət hesab edilirdisə, indi baş nazirin babası ilə bağlı ziddiyyətli əhvalat fonunda bu mövqe başqa cür rəng alır". "Əgər baş nazir Njdeyə münasibətdə öz mövqeyi üçün müntəzəm olaraq tarixi arqumentlər tapırsa, o zaman niyə o, öz babasına yanaşmada ikimənalılığa yol verib? Axı, hökumət başçısının arxiv məlumatlarını sorğulamaq üçün bütün imkanları var. Onun tərəfindən rəsmi reaksiyanın olmaması getdikcə daha çox sual doğurur: bir tərəfdən inamsızlıq artır, digər tərəfdən də Paşinyanın susması Njdenin xatirəsinin əbədiləşdirilməsinə dair mövqeyinə etiraz etməmək cəhdi kimi görünür. Baş nazirin babasının əhvalatına düzəlişlə bağlı elə hökumətin digər hərəkətləri də bir qədər ayrı cür görünür.

Məsələn, Ermənistanın "Mənim addımım" adlı hakim blokundan olan deputatlar Böyük Vətən müharibəsi veteranlarına aylıq fəxri ödənişlərin artırılması barədə qanun layihəsinin iclasın gündəliyinə salınmasından imtina ediblər. Mayın əvvəlində bu xəbər demək olar ki, diqqətdən kənarda qalırdı, indi isə bu məsələni məhz nasizmin tərəfdarlarına münasibət kontekstində müzakirə etməyə başlayıblar", - deyə müəllif yazır.

Bir neçə gün bundan əvvəl dünya birliyi faşizm üzərində Böyük Qələbənin 75 illiyini ağır pandemiya şəraitində qeyd etdi. Bizim hamımızı ortaq keçmişimiz birləşdirir və biz müharibə illərində babalarımızın, ulu babalarımızın şücaətinə, qəhrəmanlığına layiq olmalıyıq.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin İsraildəki nümayəndəliyinin rəhbəri, beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qutun İsraildə çıxan nüfuzlu "Israel HaYom" qəzetində dərc olunmuş məqaləsi bu barədədir.

İsrail sakini və sovet ordusu zabitinin nəvəsi kimi öz babasına görə qürur duyduğunu bildirən Arye Qut vurğulayır: "Lakin mənim babam qələbələrlə yanaşı, yəhudi xalqı üçün dəhşətli, dözülməz faciə olan Holokost soyqırımını da görüb. Mən Holokost barədə ilk dəfə hələ uşaq ikən öz babamdan öyrənmişəm. Həmin soyqırımında mənim babam müasir Ukrayna ərazisində bütün ailəsini, bütün doğmalarını itirib. babam Yalnız o vaxt cəbhədə olduğuna görə sağ qalıb.

O, öz Vətənini müdafiə edib, amma doğmalarını müdafiə edə bilməyib. Vəhşiləşmiş, qəddar faşist rejimi tərəfindən yəhudi xalqının kütləvi şəkildə məhv edilməsi ürəkağrısı, iztirab, alçaldılma, təhqir olunma deməkdir".

Ekspert "Israel HaYom" qəzetində qeyd edir ki, ən qəribə əhvalat bir neçə gün bundan əvvəl baş verib. Ermənistanın indiki baş naziri "facebook" şəbəkəsində öz babasının fotoşəklini paylaşıb. Arye Qut vurğulayır: "Xatırladaq ki, 9 May ərəfəsində Ermənistanın baş naziri Nikol Paşinyan öz babası Nikol Paşinyanın fotoşəklini paylaşıb və belə bir post yazıb: "Nikol Paşinyan, 1913-1943. 138-ci atıcı diviziyanın 554-cü atıcı alayında xidmət edib. Vətən uğrunda həlak olanlara əbədi eşq olsun". Bu post məni təəccübləndirdi. Çünki məlum olub ki, Ermənistanın indiki baş naziri Nikol Paşinyanın babası Nikol Paşinyan İkinci Dünya müharibəsi illərində faşistlər və nasistlərlə əməkdaşlıq etmiş kollaborasionist olub". İsrailli ekspert MDB-nin Aşqabad Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini sitat gətirir. Həmin Zirvə görüşündə Nikol Paşinyan faşist Njdeni sovet dissidenti Soljenitsın ilə müqayisə etməyə çalışarkən fiaskoya uğrayıb.

Azərbaycan Prezidenti vurğulayıb: "Əvvəlki iqtidar Yerevanın mərkəzində faşist cəllad və satqın, Qaregin Njde ləqəbi ilə alman faşistlərinə xidmət etmiş Qaregin Ter-Arutyunyana heykəl qoymuşdu. Təəssüf ki, Ermənistanın yeni hakimiyyəti bu heykəli götürmədi. Hesab edirəm ki, MDB məkanında faşizmin qəhrəmanlaşdırılmasına yer yoxdur".

Beynəlxalq münasibətlər sahəsində israilli ekspert Arye Qut vurğulayıb: "Hesab edirəm ki, İlham Əliyev öz ölkəsinin əsl lideri kimi hərəkət edib. O, bütün MDB ölkələrinin prezidentləri arasında birinci olaraq Ermənistanın baş nazirinin üzünə deyib ki, onun ölkəsi artıq neçə ildir faşist və antisemit Qaregin Njdenin qəhrəmanlaşdırılması ilə məşğul olur".

İsrailli ekspert yazır ki, xalqların öz tarixini, tarixi keçmişini şərh etmək və öz milli qəhrəmanlarını xatirəsini əbədiləşdirmək kimi suveren hüquqlarına heç kəs müdaxilə etmir. Arye Qut yazır: "Lakin Prezident İlham Əliyev MDB-nin Zirvə görüşündə əsl həqiqəti deməyə bilmədiyi kimi, biz də susmamalıyıq. Dəhşətli Holokost cinayətlərində əli olmuş insanlar milli qəhrəmanlara çevriləndə biz susmamalıyıq. Üç il bundan əvvəl Yerevanda nasistlərin əlaltısı, faşist və antisemit Qaregin Njdeyə heykəl qoyulmasına biz israillilər necə münasibət bildirməliyik? Ölkə bəşəriyyət əleyhinə cinayətdə ittiham edilmiş faşist canini özünün qəhrəmanı adlandıra bilərmi? Erməni faşist və antisemit general Qaregin Njdenin xatirəsinin əbədiləşdirilməsi biabırçılıq və Holokost qurbanlarının xatirəsinin təhqir edilməsi deməkdir. Şəxsən mənim üçün, babasının bütün ailə üzvləri Ukraynada faşistlər tərəfindən məhv edilmiş bir insan üçün bu, dözülməz ürəkağrısıdır".

İsrailli ekspert "Israel HaYom" qəzetində yazır: "Bu gün artıq gizli deyil ki, Ermənistanda faşizm ideologiyası, faşist Almaniyası ilə sız əməkdaşlıq etmiş erməni faşist və nasistlərin qəhrəmanlaşdırılması dövlət səviyyəsində təbliğ edilir. Bu Cənubi Qafqaz ölkəsində faşizmin, antisemitizmin və neonasizmin populyarlaşdırılması dövlət siyasətinin tərkib hissəsinə çevrilib. Ən dəhşətlisi, ən hiddətləndiricisi odur ki, "Njdeizm" adlı faşist ideologiyası tədris müəssisələrinin proqramına daxil edilib və gənc nəsil bu "dəyərlər" ruhunda tərbiyə edilir".

Arye Qut yazır: "Faşist və antisemit general Qaregin Njdenin heykəlinin açılış mərasimində Ermənistanın keçmiş prezidenti Serj Sarkisyanın və keçmiş müdafiə naziri Seyran Ohanyanın iştirak etməsi və üstəlik, Ermənistanın indiki baş naziri Paşinyanın Qələbə Günündə öz faşist-kollaborasionist babasının fotoşəklini paylaşması faktı bir daha onu təsdiq edir ki, Ermənistanın istər keçmiş, istərsə də indiki liderləri özlərini erməni faşist və antisemit Njdenin əsl və həqiqi varisləri hesab edirlər". Arye Qut vurğulayır: "Yəhudi xalqı İkinci Dünya müharibəsi dövründə 20 minlik erməni legionunun qəddarlığını heç vaxt unutmayacaq. Bu legionu yaradanlardan biri faşist Njde olub. Arxiv sənədləri ilə təsdiqlənən tarixi faktlar var. General Njde başda olmaqla erməni legionunun məqsədi yəhudiləri və alman ordusu üçün "yararsız olan" başqa xalqları məhv etmək idi. Məhz erməni legionunun sayəsində Simferopol, Yevpatoriya, Aluşta, Kerç və Feodosiya, habelə Qərbi Krımın digər rayonları yəhudilərdən tamamilə təmizlənmişdi".

İsrailli ekspert qeyd edir ki, bütün bunlardan sonra biz müasir Ermənistanda erməni faşist və antisemitin təriflənərək milli qəhrəman dərəcəsinə çatdırılmasına laqeyd yanaşa bilərikmi? Müasir Ermənistanın bu siyasətini ləng təsir edən bomba adlandırmaq olar, çünki bu ideologiya əsasında böyüyən gənclər gələcəkdə faşizm və terrorizm əməllərini davam etdirəcəklər.

Arye Qut nüfuzlu "Israel HaYom" qəzetində dərc edilmiş məqaləsini bu sözlərlə bitirir: "Ermənistanın bu dövlət siyasəti İkinci Dünya müharibəsi zamanı faşizmə qarşı mübarizədə həlak olmuş milyonlarla insana, onların yaxınlarına və veteranlara, xüsusən faşizm üzərində Qələbə qazanılmasında müstəsna xidmətləri olmuş keçmiş SSRİ vətəndaşlarına ifrat hörmətsizlik nümunəsidir. Burada belə bir sual yaranır: Doğrudanmı ermənilərin faşist Njdedən başqa qəhrəmanları olmayıb?".

✍ ***Azad***

# Məscidlərin açılması sanitar - epidemioloji vəziyyətdən asılıdır

◂ əvvəli 1-ci səhifədə

"Sadəcə, bu proseslər mərhələli şəkildə olacaq. Ardıcıllığa riayət olunur, hamısı eyni vaxtda açıla bilməz". TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva isə əlavə edib ki, idman zallarının açılması müzakirə olunur:

"İdman zallarında bir çox idman alətləri birgə istfifadə edilir. Ancaq bu məsələ də müzakirə olunur, metodiki göstərişlər üzərində iş aparılır". "Bayram günlərində mütləq məhdudiyyət olması ilə bağlı tələb yoxdur". İbrahim Məmmədov bildirib. İ. Məmmədov deyib ki, bu, bir çağırışdır: "Bayram günləri ilə bağlı bu gün belə məhdudiyyət yoxdur". Onun sözlərinə görə, obyektlərin açılması ilə bağlı bir ardıcıllıq gözlənilir: "Gələcəkdə idman obyektləri də açıla bilər. Mərhələ-mərhələ yumşalma daha effektifdir".

TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib ki, yoluxma artsa, bayram günlərində hərəkətin məhdudlaşdırılması işə bağlı təkliflə çıxış edilə bilər. Onun sözlərinə görə, bu təcrübə qardaş Türkiyədə də tətbiq olunur: "Azərbaycanda da yoluxma artsa, bundan istifadə edilə bilər". "Rayonlara gediş-gəlişin bərpası sanitar-epidemioloji vəziyyətdən asılıdır". İbrahim Məmmədov bildirib. O deyib ki, mütəxəssislər gediş-gəlişin əhali üçün təhlükəli olmamasını nə zaman mümkün hesab etsələr, bu barədə qərar veriləcək.

"Toyların iyun-iyul aylarında keçiriləcəyi barədə bu gün hələ bir şey deyə bilmərik". İbrahim Məmmədov bildirib. "Bugünkü vəziyyətə istinad edə bilərik ki, şadlıq evlərinin açılması gözlənilmir. Amma bu, bugünkü statistikaya aiddir, növbəti həftə nə baş verəcək, statistika, sanitar-epidemioloji vəziyyət necə olacaq, ona uyğun qərar veriləcək", - deyə o əlavə edib.

# 60 günlük karantindən sonra Bakı

◂ əvvəli 1-ci səhifədə









Onlar da dəniz seyrinə yox, kafe və əyləncə məkanlarına boylanırdılar. Amma işləmədiklərini görüb ayaqlarını sürüyə-sürüyə başqa istiqamətlərə yol alırdılar.

Bulvardakı bəzi iaşə obyektlərində isə yeni mövsümün hazırlıqları gedirdi. Xadimələr silib-süpürür, təmizlik işləri aparırdılar.

Bulvarda əsas canlanma velopark istiqamətində idi. Əvvəlki dövrlərdə olduğu kimi deyildi. Amma üç-dörd nəfər sevgili saatı 3-5 manata velosiped kirayələyib üzü küləyə, üzr istəyirəm, Dövlət Bayrağı Meydanı tərəfə deyə-gülə yol alırdılar. Buradakı istinad və qadağan lövhələri də götürülüb səliqə ilə bir kənara yığılmışdı.

**■ Növbəti istiqamət: Qubernator bağı...**

Qubernator bağına gedirik, yeraltı keçiddən keçirik. Popkorn satanlar yenə də iş başındadır. Hətta bir girtara ifaçısı papağını yerə atıb ifasının qarşılığında adamlardan qəpik-quruş umur...

Qubernator bağında isə əməlli-başlı süstlük hökm sürür. Kafe və restoranlar, çayxanalar hələ açılmayıb. Xidmətçilər isə bağı suvarırlar. Bir-iki kafenin qapısı açıq olsa da, içəridə axşama hazırlıq getdiyinin şahidi olduq. Pəncərələr silinir, girişdəki ayaqaltılar çırpılıb təmizlənirdi.

Parkda bir-iki yaşlı insan isə üz-üzə oturub söhbət edir, təsbeh çevirirdi. Bağın çıxışındakı tantuni-şaurma köşkləri, dönərxanalar isə onlayn sifariş yerinə yetirirdilər. Qiymətlər dəyişməsə də, onlar da tam fəaliyyət göstərmirlər. İçəridə keçib oturmaq olmaz. Deyirlər ki, içəridə oturmaq üçün tam icazə almayıblar, çünki ara məsafəsi saxlanmalıdır. Əgər belə olarsa, içəriyə ancaq iki-üç müştəri ala biləcəklər. Ona görə ki, yerləri dardı...

**■ Gedirik Sabir bağına...**

Sabir bağında Sabirin heykəlindən başqa, demək olar ki, heç kim yoxdur. Skamyalar boşdur. Biz orada olarkən bir yaşlı arvad gəlib əyləşdi. O da iki-üç dəqiqə... Qızı ilə qaçaraq telefonla danışıb getdi. Bir də ara-sıra kənarda bağın otlarını biçənlər, zibilləri təmizləyən yaşlı kişi və qadınlar gözə dəyirdi.

**■ Qoşa Qala qapısında qoşa heç nə gözə dəymədi...**

Hər zaman turistlərin əlindən tərpənə bilmədiyimiz İçərişəhərin Qoşa Qala qapıları da "ağzına su alıb" üzümüzə baxırdı. Kimsə yox idi, bircə köhnə bər-bəzək, suvenir satanlardan başqa... Unutdum, bir də kolleksiyaçı dükanları açıq idi. Onların da sahibləri müştəri olmadığından bir-birləri ilə söhbətləşirdilər. Marsa raket göndərən amerikalıların bir balaca koronavirusa "dov gələ bilməməyindən" danışırdılar.

**■ "Tarqovı"da az-çox canlanma var...**

Əvvəlki kimi olmasa da, şəhərin vuran ürəyi hesab olunan Nizami küçəsində - "Tarqovı"da az-çox canlanma hökm sürür.

Geyim dükanları açılıb. İçərisində adamlar - alıcılar yoxdur. Satıcılar isə bir-birləri ilə söhbətləşir, evdə qaldıqları günlərdəki ev macəralarından danışırlar. Kafe və restoranların bəziləri isə açıq səmada fəaliyyət göstərir. Yay rejiminə keçiblər. Bəziləri isə səyyar və ya onlayn sifariş göstərirlər. İçəridə müştəri qəbul etmirlər. Amma təmizlik işləri gerçəkləşir. Fəvvarələr meydanı istiqamətində isə restoranlar balaca masa qoyaraq, kreativ üsullarla müştəri cəlb etməyə çalışırlar. Məsələn, kofe, çay təklifi edirlər. Özü də 5,6 manatdan başlayan qiymətlərlə...

Park və əyləncə mərkəzləri isə boşdur. Təkəm-seyrək adamlar gözə dəyir. Söz düşmüşkən onu da deyim ki, biz ərazidə olduğumuz vaxt, daha çox sakin danışdırmaq istəyən jurnalistləri, həmkarlarımızı görürdük. Hamı redaksiyadan "Karantindən sonra Bakının ilk günü..." haqqında reportaj hazırlamaq əmrini almışdı. Elə bizim kimi...

**■ "Malakan bağı"nda daha çox canlanma...**

Yaşlılar burada daha çox idi. Rus və molokanəsilli qadınlar qucaqlarında it-pişiklə gəzintiyə çıxmışdılar. Hətta nəvələri ilə gəzintiyə çıxanları, başları söhbətə qarışıb uşaqlarını unudan anaları demirəm... balacalar isə 60 günlük "ev həbsi"ndən sonra daha çox əyləncə eşqində idilər. Ora-bura qaçışırdılar. Qumruların, göyərçinlərin arxasınca düşən yenicə ayağı yer tutan qızcığazları demirəm...

Buradakı restoranların qapısı açıq olsa da, içərisində iki-üç müştəri ola, ya olmaya... Bir də ara-sıra polislər gözə dəyirdilər. Nəzərimizdən bir məqam da qaçmadı: yaşlıların ağzında tibbi maska yox idi, gənclər isə bu tələbə daha çox riayət edirdilər. Elə restoranlarda çalışanlar da əlcək və tibbi maskadan istifadə etmirdilər, vallah, gözümüzün şahidiyik.

Səyyar kofe və çay sifarişi yerinə yetirən restoran işçiləri isə əvvəlcə tələb üçün gələn müştərinin əllərini spirtləyir, sonra sifarişlərini alırdılar. Əlləri əlcəkli, ağızları maskalı...

**■ Cavid bağında çayxanalar işləyir...**

Metronun "Elmlər Akademiyası" istiqamətindəki Cavid bağında isə əla canlanma var. Çayxanalar yay rejiminə keçib, bu öz yerində... İçəridə müştərilər də çoxdur, ən azından "Tarqovı"ya baxanda... Təbii ki, ara məsafəsi də qorunur. Stol və stullar iki metrdən bir, seyrək düzülüb. Bayırda da eyni durumdur. Çayların qiymətində isə 50 faiz bahalaşma var. Sadə çay verilmir. Şokoladlı çay isə 6 manatdır.

Parkdakı uşaq əyləncə mərkəzləri isə hələ fəaliyyətə başlamayıb. Valideynlər azyaşlı uşaqlarını parka gətirsələr də, attraksionlar işləmir, uşaq maşınlarının üstü isə hələ də sellofanlıdır. Bağın qarşı tərəfi - AMEA-nın parkında isə daha çox tələbələr və sevgililər gözə dəyir. Deyib-gülürlər. Skamyaların bir hissəsi doludur. Bəzi yerlərdə isə ümumiyyətlə adamlar oturmur. Popkorn və "pambıqlı marojna", "Gəl, ay müştəri" deyən dayıların alveri isə çox yaxşı gedir. Şar da satırlar, şirni də, dondurma da... 60 gündən sonra uşaqları ilə bayıra çıxan valideynlər isə ciblərinin ağzını açıblar. Uşaqlarının xətrinə də dəymirlər.

Univeristetlər fəaliyyət göstərməsə də, Bakı Dövlət Universitetinin qarşısında da xeyli gənc gözə dəyirdi. Üzüm ayağınızın altına, ağız-ağıza verib söhbətləşirdilər. Üç-üç, beş-beş toplaşmışdılar. Ağızlarında isə tibbi maska yox idi.

✍ ***Tural***

# Ötən il küçələrdə işləyən və dilənçilik edən 430 uşaq aşkarlanıb

***Milli Məclisin İnsan hüquqları, Hüquq siyasəti və dövlət quruculuğu komitələrinin birgə iclası keçirilib. Milli Məclis Aparatının Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən hafta.az-a verilən məlumata görə, iclas iştirakçıları torpaqlarımız uğrunda həyatını qurban verən şəhidlərin xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.***



■ İnsan hüquqları komitəsinin sədri Zahid Orucov diqqətə çatdırıb ki, iclasda İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair məlumatı təqdim olunacaq. Zahid Oruc deyib ki, Azərbaycanda insan alverinə qarşı hüquqi bazanın yaradılması çərçivəsində sistemli mübarizə tədbirləri 2003-cü ilin 15 may tarixində BMT-nin Transmilli Mütəşəkkil Cinayətkarlığa qarşı Konvensiyasının, onu tamamlayan İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında, həmçinin Sərhədlərin qanunsuz keçilməsinə dair protokolların təsdiqindən sonra daha da sürətlənib. 2005-ci ildə insan alverinə qarşı mübarizə ilə bağlı qanun qəbul olunub və burada Milli Fəaliyyət Planı yer alıb, Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə üzrə Baş İdarəsi yaradılıb.

Azərbaycanda İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator Fəaliyyət Planının həyata keçirilməsi üzrə məsul şəxsdir. İnsan alverinə qarşı mübarizə ilə bağlı qanunun müvafiq maddəsinə görə, məcburi əmək, cinsi istismar, köləlik, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə habelə insanların digər formada istismar edilməsi insan alverinin müxtəlif formaları kimi tövsiv edilir. Avropa Şurasında İnsan Alveri Əleyhinə Ekspert Qrupu formalaşdırılıb. Təşkilata üzv ölkələrdə bu məsələlərlə bağlı vəziyyətə onun vasitəsi ilə nəzarət olunur. Qurumun mütəxəssisləri hər il ölkələrdə bu məsələləri monitorinq edirlər.

Komitə sədri BMT-nin Ümumdünya İnsan Alveri Hesabatının 142 ölkəni əhatə etdiyini bildirərək, Azərbaycanın beynəlxalq hesabatlarda yerinin yaxşılaşacağına əminliyini ifadə edib. Eyni zamanda, Azərbaycanda 2019-2023-cü illər üzrə növbəti Fəaliyyət Planının hazırlandığını diqqətə çatdırıb, hesabatla bağlı bir sıra təkliflərini səsləndirib.

■ **Sonra Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin rəisi Həzi Aslanov məruzə ilə çıxış edib.**

Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair növbəti Milli Fəaliyyət Planının layihəsi keçən ili aprel ayında hazırlanaraq Nazirlər Kabinetinə təqdim edilib. Həzi Aslanov bildirib.

H. Aslanov deyib ki, həm ABŞ Dövlət Departamentinin hesabatı, həm də Avropa Şurasının İnsan Alverinə qarşı Mübarizə üzrə Ekspertlər Qrupunun (GRETA) tövsiyələri də nəzərə alınaraq yenidən Nazirlər Kabinetinə Milli Fəaliyyət Planında müəyyən məsələlərə yenidən baxılması təklif olunub: "Artıq bütün maraqlı qurumların rəhbərlərinin vizaları toplanıb, hazırda məsələlər yekunlaşıb. Artıq Milli Fəaliyyət Planının yekun variantı hazırlanıb. Təkcə keçən ilin nəticələrinə görə, öncəki Milli Fəaliyyət Planının icrasına 20 dövlət qurumu cəlb edilmişdi, sənəd 72 bənddən ibarət idi".

Qeyd edək ki, bundan öncə Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 24 iyul tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2014-2018-ci illər üçün Milli Fəaliyyət Planı" icra edilib.

Keçən il xarici ölkələrdə əmək fəaliyyəti, təhsil, əcnəbilərlə nikah, məişət zorakılığı, miqrantların müvəqqəti qeydiyyatı, övladlığa götürmə və digər məsələlərlə bağlı "152 Qaynar xətti"nə 6 min 845 müraciət daxil olub. Həzi Aslanov bildirib. H. Aslanov deyib ki, müraciətlər araşdırılaraq qanunauyğun ölçülər götürülüb, təşəbbüskarlara zəruri izahlar verilib.

Keçən il ölkədə olma və yaşama qaydalarını pozan 11564 əcnəbi müəyyənləşdirilərək inzibati məsuliyyətə cəlb edilib. Həzi Aslanov deyib.

O bildirib ki, 8093 nəfərin respublikanın hüdudlarından inzibati qaydada çıxarılması təmin olunub.

"Ötən il həyata keçirilmiş əməliyyat-axtarış tədbirləri ilə respublika üzrə 4 məcburi əmək faktı müəyyən edilib", - Həzi Aslanov deyib.

O bildirib ki, aparılan araşdırmalarda bu faktlar üzrə 6 qurbandan 5-nin Rusiyada tikinti sahəsində istismar edildiyi, 1 azyaşlının respublikada məcburi dilənçiliyə məruz qalması müəyyənləşib.

Hər bir fakt üzrə istintaq araşdırmaları aparılaraq, təqsirkar şəxslər məhkəmə məsuliyyətinə verilib.

"Keçən il uşaq əməyinin istismarının qarşısının alınması məqsədilə keçirilmiş reydlər zamanı ailə mühitindən, pedaqoji və ictimai təsir vasitələrindən kənarda qalan, küçələrdə işləyən və dilənçilik edən 430 uşaq aşkar edilib", - Həzi Aslanov deyib.

O bildirib ki, aparılmış yoxlamalarla həmin uşaqlardan yalnız birinin məcburi əməyin qurbanı olması təsdiqlənib. Digər hallar üzrə isə cinayət tərkibi müəyyənləşməyib. Həmin faktlar əsasında övladlarının təlim-tərbiyəsi ilə bağlı üzərinə düşən vəzifələri yerinə yetirməyən 180 valideyn barəsində inzibati tənbeh tədbirləri görülüb. Bununla bərabər, müvafiq problemlərin aradan qaldırılması, uşaqlara qayğı və yardımın göstərilməsi məqsədilə yerli icra hakimiyyətləri yanında komissiyalara qəyyumluq və himayə orqanlarına 670 material göndərilib.

■ **Milli Məclisin İnsan Hüquqları və Hüquq və dövlət quruculuğu komitələrinin birgə keçirilən iclasında İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatorun illik məlumatının (2019) müzakirəsi zamanı millət vəkilləri irad və təkliflərini səsləndiriblər.** Hikmət Babaoğlu bildirib ki, hazırda bütün sahələrdə olduğu kimi, insan alverinə qarşı mübarizə sahəsində də yeni bir fenomen var: "Bu, sosial şəbəkələr fenomenidir. Sosial şəbəkələrdə bütün sövdələşmələr var ki, onlar bütün cinayətkarlığın başlanğıcı ola bilər. Digər tərəfdən 2011-ci ildə Yaxın Şərqdə Suriya müharibəsi başlayandan sonra xeyli sayda azərbaycanlı muzdlu döyüşçü kimi Yaxın Şərqə cəlb olunub. Hazırda İraqda və bir neçə ölkədə həmin muzdlu döyüşçülərin övladları istismar olunur, düşərgələrdə saxlanılırlar. Bunlarla bağlı da hesabatda məlumat olsa, çox yaxşı olardı".

■ **Millət vəkili Elman Nəsirlinin fikrincə isə hesabatda bildirilir ki, 2005-ci ildən 2019-cu ilə qədər insan alverinin qurbanı olanlarla bağlı 1514 cinayət faktı qeydə alınıb və 570 cinayət işi açılıb:** "Müəyyən suallar yaranıb. Bu cinayətdə mənbə, tranzit və təyinat nöqtəsi kimi olan ölkələr var. Hesabatda Azərbaycanın daha çox mənbə ölkəsi kimi təqdim olunub. Təklif edərdim ki, Azərbaycanın tranzit və təyinat nöqtəsi ölkə kimi bu təsnifatda yeri və çəkisi ilə bağlı məlumatları da hesabata daxil edəsiniz. Eyni zamanda Azərbaycanda insan alverindən əldə olunan gəlirlərin miqdarı da açıqlansın".

■ **Millət vəkili Tural Gəncəliyev bir neçə təkliflə çıxış edib. O bildirib ki, sırf işğal olunmuş ərazilərdən əsir və itkin düşmüş və girov götürülmüş şəxslərin insan alverinin obyekti kimi olduğu hadisələr də hesabata daxil edilməlidir:** "Çünki bu insanların insan alverinin qurbanı olması, onların orqanlarından istifadə edilməsi, onların məcburi əməyə cəlb edilməsi istisna olunmur. Bu məlumatları biz əldə etsək, Ermənistanın ifşa edilməsi ilə bağlı gələcək fəaliyyətimizdə də işlər görə bilərik. Digər tərəfdən, 90-cı illərin əvvəllərində Ermənistan tərəfindən QİÇS xəstəliyi üzərində hansısa dərmanların tapılması ilə bağlı məlumatlar yayıldı. Sonrada məlum oldu ki, bu preparatları məhz bizim orada əsirlikdə olan insanlar üzərində sınaqdan keçiriblər. Hazırda da istisna etmək olmaz ki, COVID-19 pandemiyası ilə bağlı eksperimentləri yenə də bizim orada olan vətəndaşlarımız üzərində etmirlər".

■ **Millət vəkili Fəzail Ağamalı isə bildirib ki, hesabatda yer alan rəqəmlərdə kifayət qədər ziddiyyət var: "Cinayətlərin sayı artsa da, cinayətlərə yol vermiş insanların məsuliyyətə cəlb edilməsində rəqəm isə azalır.** Bu məsələ burada çoxu üçün də aydın deyil. Digər tərəfdən, Yaxın Şərqdə gedən müharibələrdə iştirak etmiş azərbaycanlıların taleləri ilə bağlı da məruzədə heç bir məlumat yer almayıb.

Son vaxtlar Azərbaycandan Avropa ölkələrinə də kifayət qədər insan axını var. Saxta sənədlərlə Azərbaycan vətəndaşları yaxşı həyat naminə Avropaya gedirlər. Lakin bu insanların Avropada əmək istismarına da cəlb edilirlər. Fiziki əməyin istismarı ilə yanaşı, orada əqli əməyin istismarı da baş verir".

Həzi Aslanov səslənən fikir və iradlara münasibət bildirib: "Əminə xanımın verdiyi suallarla bağlı qeyd edim ki, DİN və onun tərkib hissəsində olan bir neçə qurumlar spesifik sahədə xidmət aparır. Artıq ikinci dəfədir, hesabat təqdim edirik. Əminəm ki, gələn dəfə deyilən iradlar məruzədə əksini tapacaq. Rəqəmlərdə əsasən, dekabrın 31-ə olan məlumatlar əsas götürülür. Rəqəmlər hamısı baş idarənin internet səhifəsində də var.

Məsələn, 2018-ci ildə 20 hökmlə 23 azadlıqdan məhrumetmə hökmlərinə baxılıb. Orada 20 nəfər şərti məhkum olunub, 1-i məhkəmələr tərəfindən təxirə salınıb, 2 real azadlıqdan məhrumetmə cəzası verilib. 2019-cu ildə 27 şərti məhkum etmə hökmü çıxarılıbsa, artıq 14 nəfərə real azadlıqdan məhrumetmə cəzası verilib".H. Aslanov axtarışda olanlarla bağlı məsələyə də toxunub: "Axtarışda olan şəxslərin keçən il 50%-dən çoxunun tutulması təmin olunub. Bu günə respublika üzrə cəmi 19 şəxs axtarışda qalıb. Onların içində cəmi 4 nəfər (3-ü Türkiyə, 1-i İran vətəndaşı) əcnəbi vətəndaşdır. Bütün axtarılan şəxslər haqqında bütün məlumatlar idarə tərəfindən əldə olunub".

✍ *Sultan*

BÖLGƏ

## QOBUSTANDA tarixi abidə ərazisində tikinti işləri dayandırıldı



**AMEA Arxeologiya və Etnoqrafiya İnstitutuna Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Dövlət reyestrinin aparılması, abidələrə və tədqiqatlara nəzarət sektorunun müdiri Pərviz Nəcəfov tərəfindən Qobustan rayonu Sündü kəndi ərazisindəki yeni orta məktəbin tikinti işləri zamanı saxsı qab nümunələrinin aşkar edilməsi haqqında məlumat daxil olub.**

İnstitut rəhbərliyinin göstərişi ilə şöbə müdiri, bölgə üzrə arxeoloji ekspedisiyanın rəhbəri Akif Quliyev rayona ezam edilib və Mədəniyyət Nazirliyinin yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin Qobustan rayonu üzrə abidə mühafizəçisi Bəylər Ağayevlə birgə maddi mədəniyyət nümunələrinin aşkar edildiyi əraziyə baxış keçirib. Müəyyən edilib ki, ərazidə Antik dövrə aid nekropol olub. Akif Quliyevin fikrincə, əraziyə yayılmış daşlara əsasən, Antik dövr nekropolu daş qutu qəbirlərdən ibarət olub və ümumilikdə nekropol Qafqaz Albaniyasının xristianlıq ərəfəsindəki dövrə aiddir. Torpağın üst qatı ekskavator vasitəsilə götürüldüyündən nekropol dağıdılıb, mədəni təbəqə qarışıb. Abidənin aşkar edilməsi haqqında məlumat, təəssüf ki, müvafiq orqanlara vaxtında çatdırılmayıb və tikinti işləri zamanı abidənin çox hissəsi dağıdılıb. İnstitutdan hafta.az-a bildirib ki, tikinti rəhbərliyi Mədəniyyət Nazirliyi və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutu ilə əlaqə saxlayaraq, ərazidə tədqiqat işlərinin aparılmasına qədər bütün tikinti işlərinin dayandırıldığını və bu işlərin arxeoloji araşdırmalardan sonra davam etdiriləcəyini deyib. Əldə edilmiş razılığa əsasən yaxın vaxtlarda qeyd edilən ərazidə kəşfiyyat işləri başlanacaq, abidənin sərhədləri müəyyən ediləcək və Mədəniyyət Nazirliyi tərəfindən qeydiyyata alınacaq. Abidədə arxeoloji tədqiqat işlərinin həyata keçirilməsi Arxeologiya və Etnoqrafiya İnstitutu və Mədəniyyət Nazirliyinin birgə qərarından sonra baş tuta bilər.

## MASALLIDA 38 min əhalinin istifadə etdiyi yol yenidən qurulub



**Masallı-Köhnə Alvadı-Təzə Alvadı-Güllütəpə-Əmirtürbə-Yeni Zuvand avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında Prezident İlham Əliyevin sərəncamına əsasən, Masallı rayonunda 2 istiqamət üzrə kəndlərarası avtomobil yollarının əsaslı şəkildə yenidən qurulması işləri yekunlaşıb.**

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyindən hafta.az-a verilən məlumata görə, söhbət ümumi uzunluğu 16 km olan Masallı-Köhnə Alvadı-Təzə Alvadı və Köhnə Alvadı-Güllütəpə-Yeni Zuvand-Əmirtürbə avtomobil yollarından gedir.

Uzun müddət əsaslı şəkildə təmir olunmayan yolların yenidən qurulmasında məqsəd yol boyu 15 yaşayış məntəqəsində yaşayan 38 min nəfər əhalinin gediş-gəlişini təmin etmək, rayon mərkəzinə, həmçinin M3 Bakı-Ələt-Astara-İran İslam Respublikası ilə dövlət sərhədi avtomobil yoluna rahat çıxış əldə olunmaqla yük və sərnişin daşımasını asanlaşdırmaqdır. Sözügedən yollarda işlər texnoloji ardıcıllığa riayət olunmaqla və yüksək sürətlə aparılıb. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən tikinti ərazilərinə kifayət qədər canlı qüvvə və texnika cəlb olunmaqla aparılmış yenidənqurma işləri çərçivəsində torpaq və çınqıl örtüklü olan yollar 4-cü texniki dərəcəyə uyğun təkmilləşdirilib. Yolların eni 10 metrə qədər genişləndirilib. Bura 6 metr enində hərəkət hissə və 2 metr enində çiyinlər daxildir. Aparılan genişləndirmə işləri öz növbəsində bütün hərəkət iştirakçılarının normal və təhlükəsiz hərəkətinə hesablanıb.

# Çimərliklərlə bağlı yeni qaydalar hazırlanır

**"Çimərliklərlə bağlı komissiya yaradılıb, qaydalar hazırlanıb". Bunu Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib. E. Əzizov deyib ki, ola bilər ki, bəzi çimərliklərdə sıxlıq yaransın: "Biz bununla bağlı elektron sistem üzərində düşünürük. Vətəndaş evdən çıxmazdan əvvəl elektron sistemlə yer sifariş edə bilər".**

Nazirlər Kabineti mətbuat xidmətinin rəhbəri İbrahim Məmmədov isə bildirib ki, TƏBİB-in turizm məkanları ilə bağlı tibbi-metodik göstərişlər çimərliklərə də aiddir. İ. Məmmədov deyib ki, həmin yerlərdə hüquqi şəxslər sosial məsafənin qorunmasına nəzarət edəcəklər: "Ola bilər ki, çimərliyin özünün də spesifik tələbləri olsun".

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov isə çimərliklərə nəzarətlə bağlı yerli icra hakimiyyəti orqanlarına müvafiq tapşırıqlar verildiyini bildirib. "Çimərliklər açılacaq". Eldar Əzizov bildirib. E. Əzizov deyib ki, yaxın gələcəkdə çimərliklərin açılması nəzərdə tutulub: "Ancaq çimərliklərdə də sosial məsafə və digər tələblərə riayət etmək lazımdır".

"Əvvəllər axşamlar dezinfeksiya işləri aparırdıq". Eldar Əzizov bildirib. E. Əzizov əhalinin bununla bağlı narazılığı olduğunu bildirib: "Hazırda əhalini xəbərdar etməklə dezinfeksiya işləri şənbə günləri aparılmağa başlanıb. Xüsusi maddələr 10-15 dəqiqə ərzində əriyir. Sürücülər də bunu nəzərə almalıdırlar. Əgər avtomobillər çox sürətlə hərəkət edirsə, biz dezinfeksiya işləri ilə bağlı bunu nəzərə ala bilərik".

"İctimai nəqliyyatda vətəndaş 1 metr məsafə saxlayarsa, yoluxma təhlükəsi azalar". Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib. E. Əzizov deyib ki, marşrutlarda nəzarət gücləndirilir: "Biz KİV-in yardımından istifadə edərək maarifləndirməni gücləndirməyə çalışırıq. Bununla bağlı xüsusi proqram hazırlanır".

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı qeyd edib ki, supermarketlərdə də sosial məsafə saxlanılmalıdır: "Vətəndaşlar özünü qorumağın zəruri olduğunu başa düşmürsə, hansısa addımların atılması çətindir".

"Bağçaların açılması birinci növbədə sanitar-epidemioloji vəziyyətdən asılıdır". Eldar Əzizov bildirib. Onun sözlərinə görə, mütəxəssislər, Operativ Qərargahın üzvləri qərar çıxarsalar, ondan sonra bağçalar istifadəyə veriləbilər: "Mənə elə gəlir ki, yaxın perspektivdə bu məsələyə baxılmayacaq". "Aparılan işlərə baxmayaraq, vətəndaşlar tibbi maskadan istifadə etməsələr, sosial məsafəni saxlamasalar, koronavirusa yoluxmada ikinci dalğadan özümüzü qoruya bilməyəcəyik". Eldar Əzizov bildirib. E. Əzizov deyib ki, dünən ictimai nəqliyyatda bir şəkil çəkilib: "Bakıda avtobusda çəkilən şəkildə bir nəfər belə maska taxmayıb. Bakı sakinlərinə müraciət edirəm ki, qaydalara riayət edək".



**Eldar Əzizov,**
Bakı Şəhər İcra Hakimiyyətinin başçısı

"Bu gün aparılan işlər nəticəsində Bakı təmiz şəhərdir". Eldar Əzizov bildirib. E. Əzizov deyib ki, dezinfeksiya işlərində 2 min insan çalışır: "Bütün liftlərdə hər gün dezinfeksiya aparılır. Mən kooperativlərə və Mənzil Tikinti Kooperativlərinə müraciət edirəm. MTK-lar və kooperativlər kollektiv müdiriyyət kimi gedir, onlar bu binalarda dezinfeksiya işləri aparmalıdırlar. Biz də həmin binalarda dezinfeksiya işləri aparırıq".

"Artıq 2 aydır ki, karantin şəraitində yaşayırıq". Eldar Əzizov bildirib. E. Əzizov deyib ki, bu vəziyyət Bakıda İcra hakimiyyətləri qarşısında yeni çağırışlar qoyur: "Bu çağırışlara Bakı Şəhər İcra Hakimiyyətinin strukturları hazır oldular. Bunun səbəbi Prezident İlham Əliyevin rəhbərliyi ilə güclü iqtisadiyyata malik Azərbaycan dövləti modelinin yaranmasıdır".

Bakı Şəhər İcra Hakimiyyətinin başçısı qeyd edib ki, Azərbaycanda yeni tipli modul xəstəxanaların tikintisinə bu baxımdan başlanıb, ərzaq ehtiyacları təmin olunub: "Ümumdünya Səhiyyə Təşkilatı da görünən işləri yüksək qiymətləndirib. Müqayisə aparsaq, 10 milyon əhalisi olan Azərbaycanda koronavirusa yoluxanların sayı 3 minə, 2,9 milyon əhalisi olan Ermənistanda 4 minə çatıb". E. Əzizov nəzərə çatdırıb ki, Bakıda dezinfeksiya işləri hələ ölkədə xəstəlik aşkarlanmamışdan əvvəl başlanıb: "Bakı Şəhər İcra Hakimiyyətinin balansında 11 min 700 bina var, bu binalarda 2 həftədən gec olmayaraq dezinfeksiya işləri aparılır. Küçə və prospektlər xüsusi maddələrlə yuyulur".

✍ *Hafta.az*

## Azərbaycana gətirilən insulin şprisləri gömrük rüsumundan azad edilir



**Sabahdan plasmasdan insulin üçün nəzərdə tutulan və həcmi 1 millilitr (ml) və ya daha az olan şprislər idxal gömrük rüsumundan azad edilir.**

Bu, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"ndə dəyişiklik edilməsi barədə" 17 aprel 2020-ci il tarixli qərarında əksini tapıb. Qərara əsasən, sabahdan həcmi 2 millilitr və ya daha az olan plastmasdan şprislərin hər bir ədədi üçün 0,02 ABŞ dolları, həcmi 2 millilitrdən çox, lakin 5 millilitrdən çox olmayan plastmasdan şprislərin hər bir ədədi üçün 0,025 ABŞ dolları, həcmi 5 millilitrdən çox, lakin 10 millilitrdən çox olmayan plastmasdan şprislərin hər bir ədədi üçün 0,03 ABŞ dolları, həcmi 10 millilitrdən çox, lakin 20 millilitrdən çox olmayan plastmasdan şprislərin hər bir ədədi üçün 0,04 ABŞ dolları, digər plastmasdan şprislərin hər bir ədədi üçün 0,04 ABŞ dolları idxal gömrük rüsumu müəyyən edilib. Qərar 2022-ci il dekabrın 31-dək qüvvədədir.

✍ *Hafta.az*

# Yerin təkindən hansı hallarda icazə almadan istifadə etmək olar?

## Nazirlər Kabineti tərəfindən bununla bağlı müvafiq qaydalara dəyişikliklər edilib

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ekologiya və ətraf mühitin mühafizəsi

***Nazirlər Kabineti "Torpaq sahiblərinin onlara məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyacları ödəmək üçün yerin təkindən istifadə Qaydaları"na dəyişikliklər edilib. Qeyd edək ki, bununla bağlı Baş Nazir Əli Əsədov qərar imzalayıb. Dəyişikliklərə əsasən, bundan sonra mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq hüquqi və fiziki şəxslər onlara məxsus torpaq sahələrinin hüdudları daxilində, icazə almadan öz ehtiyaclarını ödəmək üçün partlayış işləri aparmadan beş metr dərinliyədək ümumi yayılmış faydalı qazıntıların çıxarılmasını və yeraltı qurğuların tikintisini, eləcə də mərkəzləşdirilmiş su təchizatı mənbəyi olmayan birinci təzyiqsiz sulu horizonta quyuların qazılmasını və istismarını həyata keçirə bilərlər.***



Amma qazıntılar zamanı aşkar edilmiş tapıntılar Ekologiya və Təbii Sərvətlər Nazirliyinə təhvil verilməlidir. Bundan başqa, yerin təkindən istifadə zamanı elm və mədəniyyət üçün maraq doğuran nadir geoloji və mineraloji törəmələr, meteoritlər, paleontoloji, arxeoloji və digər obyektlər aşkar edilərkən işlər dayandırmalı, Ekologiya və Təbii Sərvətlər Nazirliyinə bu barədə dərhal məlumat verməlidirlər.

Yeri gəlmişkən, bundan əvvəl "Yerin təki haqqında" qanunda göstərildi ki, torpaq sahibləri müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan tərəfindən müvafiq qaydada onlara məxsus torpaq sahələrinin hüdudlarında öz ehtiyaclarını ödəmək üçün partlayış işləri aparmadan beş metr dərinliyədək ümumi yayılmış faydalı qazıntıların çıxarılmasını və yeraltı qurğuların tikintisini, eləcə də mərkəzləşdirilmiş su təchizatı mənbəyi olmayan birinci təzyiqsiz sulu horizonta quyuların qazılmasını və istismarını həyata keçirə bilərdi.

Qeyd edək ki, sözügedən qanunvericiliyə görə, yer təkinin ayrı-ayrı sahələrindən istifadə ölkə təhlükəsizliyi və ətraf mühitin mühafizəsini təmin etmək məqsədilə məhdudlaşdırıla, yaxud qadağan edilə bilər. Əgər yaşayış məntəqələrinin, şəhərətrafı zonaların, sənaye, nəqliyyat və rabitə obyektlərinin ərazilərində yerin təkindən istifadə insanların həyat və sağlamlığına təhlükə törədərsə, təsərrüfat obyektlərinə və ya ətraf mühitə zərər vurarsa, o, qismən və ya tamamilə qadağan edilə bilər.

Xüsusi mühafizə edilən ərazilərdə isə yerin təkindən bu ərazilərin statusuna və müvafiq qanunvericiliyə uyğun olaraq istifadə edilir. Yerin təki istifadə üçün müəyyən müddətə və ya daimi verilir.Belə ki, yerin təki geoloji öyrənilmə üçün 5 ilədək müddətə, faydalı qazıntıların çıxarılması üçün 25 ilədək müddətə, göstərilən istifadə növləri birləşdirildikdə 30 ilədək müddətə istifadə məqsədilə verilir. Faydalı qazıntıların çıxarılması məqsədilə yerin təkindən istifadə müddəti onların işlənilməsinin yerin təkindən səmərəli istifadəni və onun mühafizəsini təmin edən texniki-iqtisadi əsaslandırılmasının nəticəsindən asılı olaraq müəyyən edilir. Yer təki sahələri faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikintisi və istismarı, xüsusi mühafizə edilən obyektlərin yaradılması və digər məqsədlər üçün müəyyən müddətə və ya daimi verilə bilər. Yerin təkindən istifadə müddətləri istifadə hüququnun verildiyi gündən hesablanır.

Yer təkinin səmərəli istifadəsinə və mühafizəsinə aid əsas tələblərə gəlincə, buraya yer təkinin istifadəyə verilməsinin qanunvericiliklə müəyyən edilmiş qaydasına riayət olunması və yerin təkindən özbaşına istifadəyə yol verilməməsi, yer təkinin geoloji öyrənilməsi, səmərəli və kompleks istifadəsi və mühafizəsinin dolğunluğunun təmin edilməsi, faydalı qazıntı ehtiyatlarının qiymətləndirilməsi və ya faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün istifadəyə verilən yer təki sahəsinin xüsusiyyətlərini təyin edəcək qabaqlayıcı geoloji və geoekoloji işlərin aparılması, yer təkinin geoloji öyrənilməsi və ondan kompleks istifadəni təmin etmək məqsədilə hər bir faydalı qazıntı yatağı üzrə kondisiyaların müəyyən edilməsi, faydalı qazıntı ehtiyatlarının, eləcə də faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan məqsədlər üçün istifadə edilən yer təki sahələrinin dövlət ekspertizasının və dövlət uçotunun aparılması aiddir. Eyni zamanda, bu məsələdə əsas tələblər sırasında faydalı qazıntıların və yanakı komponentlərin yerin təkindən daha dolğun çıxarılmasının təmin edilməsi, faydalı qazıntı yataqlarının işlənilməsi zamanı yerin təkindən çıxarılan və yerin təkində saxlanılan faydalı qazıntıların və yanakı komponentlərin uçotu, faydalı qazıntı yataqlarının su basmasından, şüalanmadan, yanğından və faydalı qazıntıların keyfiyyətini aşağı sala bilən, yataqların sənaye əhəmiyyətini azaldan və ya onların işlənməsini mürəkkəbləşdirən digər amillərdən mühafizə edilməsi, yerin təkindən istifadə edilərkən, habelə neft, qaz və başqa maddələr, materiallar yer altında saxlanılarkən, zərərli maddələr və istehsal tullantıları basdırılarkən, çirkli sular axıdılarkən yer təkinin və ətraf mühitin çirklənməsinin qarşısının alınması, qazıntı yataqlarının olduğu yerlərin çirklənməsinə və yeraltı işlərin aparılmasına təhlükə yarandığı hallarda, faydalı qazıntı laylarının olduğu və yeraltı işlərin aparıldığı yerlərdə istehsalat və məişət tullantılarının basdırılmaması, faydalı qazıntılar çıxaran müəssisələrin və faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların fəaliyyətinin müvəqqəti dayandırılması və ləğv edilməsi qaydalarına riayət edilməsi, faydalı qazıntıların yerləşdiyi sahələrdə özbaşına tikinti işləri aparılmasının qarşısının alınması və bu sahələrdən başqa məqsədlər üçün istifadənin müəyyənləşdirilmiş qaydasına əməl edilməsi də yer alıb.

Yer təkinin səmərəli istifadəsinə və mühafizəsinə aid tələblərə, həmçinin çatlı süxurların və sulu təbəqələrin səthə çıxdığı yerlərdə, habelə içməli su təchizatı və təsərrüfat məişət ehtiyacları üçün istifadə olunan yeraltı su obyektlərinin sututar sahələrində sənaye və məişət tullantılarının yığılmasının qarşısının alınması, habelə yeraltı içməli suların minerallaşmış və ya kondisiyaya uyğun gəlməyən sularla qarışması təhlükəsi olan sahələrdə yeraltı içməli suların rejiminə nəzarət edilməsi, ətraf mühitin qorunması, torpaqların rekultivasiyası, dağ qazmalarının konservasiyası və yaxud ləğvi qaydalarına əməl edilməsi, balıqçılıq su obyektlərində faydalı qazıntıların hasil edilməsi, geoloji kəşfiyyat, partlayış, qazma, dibdərinləşdirmə işlərinin aparılması kimi məsələlər də daxildir.

Xatırladaq ki, ötən il Nazirlər Kabineti "Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı"nı da təsdiq edib. Həmin qərara əsasən yerin təki istifadəyə aşağıdakı hallarda birbaşa danışıqlar yolu ilə verilir:

- yerin təkindən istifadəyə müsabiqə və hərrac elan edilən müddətdə müsabiqədə və hərracda iştirak etmək üçün müraciət olunmadıqda və ya bir iddiaçı müraciət etdikdə;
- iqtisadi, dağ-texniki, mineral-xammalın keyfiyyətinin pisləşməsi səbəbindən yer təkində saxlanılmış (konservasiya edilmiş) qalıq ehtiyatları istismar olunduqda;
- faydalı qazıntıların çıxarılması ilə əlaqədar olmayan yeraltı qurğuların tikilməsi və istismarı məqsədilə verilən yerin təki sahələri çətin keçilən relyefə malik olan və dayanıqsız mühəndis-geoloji və hidrogeoloji quruluşla səciyyələnən dağ süxurlarında yerləşdikdə;
- dağ-mədən işləri ilə əlaqədar istehsal tullantılarından istifadə edildikdə;
- yer təkinin geoloji öyrənilməsi hallarında;
- çətin keçilən relyefə malik olan və dayanıqsız mühəndis-geoloji, hidrogeoloji və litoloji quruluşlu dağ-mədən geoloji şəraitdə yerləşən, mineral xammal üçün təyin edilmiş kondisiyalara, standartlara və texniki şərtlərə uyğun gəlməyən, aşağı keyfiyyətə və səmərəyə malik faydalı qazıntı yataqları istismara verildikdə;
- mineraloji, paleontoloji və digər geoloji kolleksiya materialları toplandıqda.

"Yerin təkinin istifadəyə birbaşa danışıqlar yolu ilə verilməsi hallarının Siyahısı"nın təsdiq edilməsi ilə əlaqədar "Yerin təkindən istifadəyə xüsusi razılığın (lisenziyanın) və ya icazənin birbaşa danışıqlar əsasında verilməsi hallarının təsdiq edilməsi haqqında" Nazirlər Kabinetinin 2000-ci il 30 iyun tarixli qərarı ləğv edilib.

✍ **Sevinc**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# "Heyvanlar aləmi haqqında" qanuna dəyişikliklər gözlənilir

## Bu istiqamətdə aparılan ekoloji ekspertiza qaydaları dəyişdirilə bilər

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ekologiya və ətraf mühitin mühafizəsi

***Heyvanlar aləminin vəziyyətinə təsir edə bilən obyektlərin dövlət ekoloji ekspertizasının qaydalarında dəyişiklik edilir. Trend-in məlumatına görə, bununla əlaqədar "Heyvanlar aləmi haqqında" qanuna dəyişikliklər edilir. Bu dəyişikliyə əsasən, heyvanlar aləminin vəziyyətinə təsir edə bilən müəssisələrin, qurğuların və digər obyektlərin tikintisi və yenidən qurulması layihələrinin müvafiq normativlərə, texniki şərtlərə və tələblərə uyğunluğunu müəyyən etmək məqsədilə "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" qanunda nəzərdə tutulmuş qaydada ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi hazırlanır və həmin sənədin dövlət ekoloji ekspertizası həyata keçirilir.***



Heyvanlar aləminin vəziyyətinə təsir edən mövcud müəssisələr, qurğular və digər obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olduqda, həmin obyektlərin yenidən qurulması və ya həmin obyektlərdə mövcud qurğu və avadanlıqların dəyişdirilməsi üçün ətraf mühitə təsirin qiymətləndirilməsi sənədinin hazırlanması tələb olunmur, lakin həmin obyektlərə dair müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən verilən sənədlərdə (atıla bilən tullantı həddi (ABTH), buraxıla bilən axıntı həddi (BBAH), ekoloji pasport) ətraf mühitin mühafizəsi sahəsində normativ hüquqi aktların və texniki normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla müvafiq dəyişikliklər edilir.

Heyvanlar aləminin vəziyyətinə təsir edən mövcud müəssisələr, qurğular və digər obyektlər ətraf mühitə təsir göstəricilərinə dair ekoloji tələblərə uyğun olmadıqda və ya ilkin layihədə nəzərdə tutulandan fərqli texnologiyalar və texnoloji üsullar tətbiq edildikdə, həmin fəaliyyətə dair yenidən ətraf mühitə təsirin qiymətləndirilməsi aparılmalıdır.

Heyvanlar aləminin vəziyyətinə təsir edən müəssisələr, qurğular və digər obyektlərə dair ətraf mühitə təsirin qiymətləndirilməsi həyata keçirilərkən onların transsərhəd təsiri müəyyən edildikdə, həmin obyektlərlə bağlı transsərhəd təsirlərin qiymətləndirilməsi məsələləri Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq həll olunur.

Qeyd edək ki, Azərbaycanda "Heyvanlar aləmi haqqında" qanun 1999-cu ildə qəbul olunub. Sənəddə göstərilib ki, bu qanun Azərbaycan Respublikasında heyvanlar aləminin mühafizəsinin və istifadəsinin hüquqi əsaslarını müəyyən edir.

Eyni zamanda, "Heyvanlar aləmi haqqında" qanunvericiliyin məqsədi Azərbaycan Respublikasının ərazisində təbii sərbəstlik, yarımsərbəst və qeyri-sərbəst şəraitdə daimi, müvəqqəti və köçəri yaşayan bütün vəhşi heyvan növlərinin, onların yaşayış yerlərinin, nəsil verməsinin, populyasiyalarının, cinsiyyət hüceyrələrinin, rüşeymlərinin və heyvanlar aləminin digər obyektlərinin qorunub saxlanmasını və səmərəli istifadəsini təmin etməkdir. Heyvanlar aləminin obyektləri ibtidai orqanizmlər, bağırsaqboşluqlular, qurdlar, buğumayaqlılar, molyuskalar, dəyirmiağızlılar, balıqlar, suda-quruda yaşayanlar, sürünənlər, quşlar və vəhşi heyvanlar,

vəhşi heyvanların populyasiyaları, cinsiyyət hüceyrələri, rüşeymləri, mayalanmış kürüləri, sürfələri və generativ orqanları, vəhşi heyvanların dəriləri, dəri örtükləri, buynuzları, sümükləri və heyvan orqanizmlərinin digər hissələri, vəhşi heyvanların həyat fəaliyyətinin məhsulları (ilan, əqrəb, arı və digər heyvan zəhəri, arı balı, propolis, mum, hormonlar və s.),heyvanların paleontoloji qalıqları, vəhşi heyvanların yuvaları, sığınacaqları, səsləşmə, tüləmə, balalama, kürütökmə, daimi və müvəqqəti yığışma və digər məskunlaşma yerləri hesab olunur. Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada heyvanlar aləmi obyektlərinin mühafizəsi, istifadəsi, habelə vəhşi heyvanların elmi-tədqiqat, təbabət, təlim-tərbiyə, təsərrüfatçılıq, estetik, tamaşa və digər məqsədlər üçün yetişdirilməsi, artırılması və saxlanması ilə məşğul olan fiziki və hüquqi şəxslər heyvanlar aləminin subyektləri sayılır.

Heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlətin vəzifələrinə gəlincə, buraya heyvanlar aləminin mühafizəsi və istifadəsi sahəsində dövlət siyasətini həyata keçirmək və müvafiq normativ hüquqi aktlar qəbul etmək, heyvanlar aləminin mühafizəsi və istifadəsi üzərində dövlət nəzarətini həyata keçirmək, heyvanlar aləmi obyektlərinin mühafizəsi, səmərəli istifadəsi, artırılması və bərpası qaydalarını və normalarını müəyyən etmək, ayrı-ayrı heyvanlar aləmi obyektlərinin Azərbaycan Respublikasının hüdudlarından kənara aparılmasını və respublikaya gətirilməsini qadağan etmək və ya məhdudlaşdırmaq, heyvanların arealının genişlənməsi, törəyib artması və qorunub saxlanması məqsədilə qoruqlar, yasaqlıqlar, zooloji parklar, xüsusi mühafizə olunan təbiət əraziləri, heyvanlar aləminin dövlət uçotu, kadastrı və monitorinqi sistemini yaratmaq, Azərbaycan Respublikasının Qırmızı kitabının aparılmasını təşkil etmək daxildir. Eyni zamanda, Azərbaycan Respublikasının Qırmızı kitabına daxil edilmiş, habelə qiymətli, nadir və nəsli kəsilmək təhlükəsi qarşısında olan heyvan növlərinin xüsusi mühafizə rejimini müəyyən etmək, onların qeyri-sərbəst şəraitdə artırılmasını təşkil etmək, genetik materialların saxlanması üçün seleksiya mərkəzləri və genobanklar yaratmaq, heyvanlar aləmindən istifadə limitlərini, istifadəyə görə ödəmə növlərini və dərəcələrini müəyyən etmək, ovçuluq işlərinin tənzimlənməsini həyata keçirmək, heyvanlar aləminin və onların yaşayış mühitinin vəziyyətinə zərərli təsir edə bilən müəssisələrin, texniki qurğuların, digər obyektlərin tikintisi, quraşdırılması və yenidən qurulması layihələrinin dövlət ekoloji ekspertizasının keçirilməsini təşkil etmək, təbii fəlakət və digər səbəblər nəticəsində dağılmış və ya məhv olmuş heyvanlar aləmi obyektlərinin bərpasını təşkil etmək, heyvanlar aləminin öyrənilməsini, səmərəli istifadəsinin və mühafizəsinin vacibliyini geniş təbliğ etmək, fiziki və hüquqi şəxslərin heyvanlar aləmi üzərində mülkiyyət və istifadə hüquqlarının müdafiəsini təmin etmək, heyvanlar aləminin mühafizəsinə, səmərəli istifadəsinə və artırılmasına yönəldilmiş fəaliyyəti stimullaşdırmaq da dövlətin vəzifələrinə aiddir.

Qanunda o da qeyd olunub ki, xüsusi mühafizə olunan təbiət əraziləri istisna olmaqla, təbii sərbəstlik şəraitində olan heyvanlar aləminin obyektlərindən, onları təbii mühitdən ayırmamaqla elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün istifadə edilməsi (müşahidə, nişanlama, şəkilçəkmə və s.) onların yaşayış mühitinə zərər vurmamaq, təbii sərvətlərin mülkiyyətçilərinin və istifadəçilərinin hüquqlarını pozmamaq şərtilə pulsuz və müvafiq icazə almadan həyata keçirilir. Qeyri-sərbəst və yarımsərbəst şəraitdə olan heyvanlar aləminin obyektlərindən elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün istifadə edilməsi onları yaşayış şəraitindən ayırmamaqla pulludur. Digər tərəfdən, heyvanlar aləmi obyektlərindən onları təbii mühitdən ayırmaqla elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün istifadə edilməsinə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qaydada pullu və ya pulsuz, xüsusi icazə ilə yol verilir. Müvafiq icra hakimiyyəti orqanları lazım olan hallarda heyvanlar aləminin obyektlərindən istifadə edilməsini, yaxud heyvanlar aləmi obyektlərinin elmi-tədqiqat, mədəni-maarif, tərbiyəvi və estetik məqsədlər üçün təbii mühitdən ayrılmasını lazım olan hallarda müvafiq icra hakimiyyəti orqanları məhdudlaşdıra, habelə daimi və ya müvəqqəti qadağan edə bilər.

Bundan başqa, fiziki və hüquqi şəxslər heyvanlar aləminin obyektlərini təbii mühitdən göstərilən məqsədlər üçün ayırarkən onların kompleks istifadəsini və əldə edilmiş zooloji materialların gələcək elmi-tədqiqat işləri üçün qorunub saxlanmasını təmin etməyə borcludurlar. Vəhşi heyvanların həyat fəaliyyətinin faydalı xüsusiyyətlərindən istifadə edilməsinə (mühitin təbii sanitarları olmaq, bitkiləri tozlandırmaq və s.) yalnız onları təbii mühitdən ayırmamaqla, məhv etməməklə, yaşayış mühitini pisləşdirməməklə və heyvanlar aləminə zərər vurmamaqla yol verilir. Eyni zamanda, vəhşi heyvanlardan onların həyat fəaliyyətinin məhsullarını əldə etmək məqsədilə istifadə edilməsinə yalnız heyvanları təbii mühitdən ayırmamaqla və məhv etməməklə və onların yaşayış mühitini pisləşdirməməklə yol verilir.

✍ **Sevinc**

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi əsasında hazırlanıb.*

# "RoyalBank"ın vəzifəli şəxsləri barəsində cinayət işi məhkəməyə göndərilib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin qətiyyətli siyasi iradəsinə müvafiq olaraq, ölkə iqtisadiyyatının uğurlu inkişafının, qeyri-neft sektorunun davamlı və rəqabət qabiliyyətliliyinin, kiçik və orta biznesin stimullaşdırılmasının təmin edilməsi üçün dövlət büdcəsindən sahibkarlara güzəştli kreditlər verilməkdədir.***



Bu istiqamətdə qarşıya qoyulmuş vəzifələrin icra edilməsi məqsədilə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən iqtisadiyyatın inkişafına kölgə salan korrupsiya və rüşvətxorluq kimi mənfi amillərlə, o cümlədən əhalini narahat edən müxtəlif sahələrdə korrupsiya hüquqpozmaları və onları törətmiş vəzifəli şəxslərin qanun qarşısında ifşa və məsuliyyətə cəlb olunması istiqamətində ardıcıl və təxirəsalınmaz tədbirlər davam etdirilir. Baş Prokurorluğun mətbuat xidmətindən hafta.az-a bildiriblər ki, ləğv edilmiş "RoyalBank" ASC-nin Müşahidə Şurasının sədri Əli Cam və onun oğlu, bankın kredit departamentinin direktoru, İdarə Heyətinin sədr müavini və baş direktor vəzifələrində işləmiş Fuad Cam tərəfindən vətəndaşların adlarına saxta kredit müqavilələri rəsmiləşdirilməklə pul vəsaitlərinin talanması və digər xüsusatlar üzrə başlanmış cinayət işi üzrə Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində aparılmış istintaq tamamlanıb.

İstintaqla Əli Camın və Fuad Camın qabaqcadan əlbir olaraq qulluq mövqelərindən istifadə edərək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Kənd Təsərrüfatı Kreditləri üzrə Dövlət Agentliyindən kənd təsərrüfatı kreditlərinin verilməsi üçün "RoyalBank" ASC-nin hesabına köçürülmüş pul vəsaitlərini 2007-2012-ci illər ərzində rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə 31 müxtəlif hüquqi və fiziki şəxslərin adına sənədləşdirməklə krediti həmin şəxslərə verməyərək onlara etibar edilmiş 8,5 milyon manat məbləğində pul vəsaitlərini mənimsəmələrinə əsaslı şübhələr müəyyən olunub. Bundan başqa, Əli və Fuad Camın qanunsuz rəsmiləşdirdikləri iri məbləğli kreditlər üzrə ümumilikdə 7,3 milyon manat məbləğində pul vəsaitini Hindistan, Fransa və digər ölkələr olmaqla, cəmi 19 ölkədə yerləşən bank hesablarına və şirkətlərə köçürüb həqiqi mənbəyini gizlətməklə leqallaşdırmalarına şübhələr üçün əsaslar müəyyən edilib.

Keçirilmiş istintaq-əməliyyat tədbirləri nəticəsində Fuad Cam ötən il iyunun 24-də Azərbaycan ərazisinə qayıdarkən tutulub. Əli Cam isə 2019-cu il 6 iyul tarixdə ölkəmizə ekstradisiya olunub. Həmin şəxslərə Cinayət Məcəlləsinin 179.3.2-ci (külli miqdarda mənimsəmə və ya israf etmə), 313-cü (vəzifə saxtakarlığı), 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə ağır nəticələrə səbəb olduqda) və 193-1.3.2-ci (Cinayət yolu ilə əldə edilmiş külli miqdarda pul vəsaitlərini və ya digər əmlakı leqallaşdırma) maddələri ilə ittiham elan edilib. Cinayət işi üzrə istintaq tamamlanaraq baxılması üçün aidiyyatı üzrə Bakı Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

✍ *Hafta.az*

# Nəsimi rayon İcra Hakimiyyətində növbəti videomüşavirə keçirilib

**Nəsimi rayonunda rayon İcra Hakimiyyəti başçısının Birinci müavini Gülarə xanım Verdiyevanın sədrliyi ilə İcra Hakimiyyətinin məsul əməkdaşlarının və bir qrup rayon könüllülərinin iştirakı ilə videomüşavirə keçirilmişdir.**




Müşavirədə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 01-17 may 2020-ci il tarixlərində keçirdiyi görüşlər, iştirak etdiyi tədbirlər, imzaladığı fərman və sərəncamlar barədə videomüşavirə iştirakçılarına geniş məlumatlar verilmişdir. 2018-ci ildən başlanmış islahatların 2020-ci ilin əvvəlindən başlayaraq bütün sahələri əhatə etməsi xüsusi vurğulanmışdır. Qeyd olunmuşdur ki, aparılan kadr islahatları bütün kadrların qarşısına yeni vəzifələr qoyur. Bu günkü kadr islahatlarının əsas xətti onu göstərir ki, korrupsiya ilə mübarizədə hər kəs daha mübariz olmalı və vətəndaş-məmur münasibətləri daha faydalı prinsiplər üzərində qurulmalıdır.

Könüllülərin cəmiyyətimizdə xüsusi yerinin olduğunu vurğulayan natiq respublikamızda, o cümlədən Nəsimi rayonunda da könüllülərdən ibarət təşkilatlar tərəfindən həyata keçirilən tədbirlər barədə məlumatlar verdi və könüllüləri rayonun ictimai işlərində daha fəal olmağa çağırdı. Müşavirədə çıxış edən könüllülər belə müşavirələrin əhəmiyyətini xüsusi qeyd edərək gələcəkdə də rayonun ictimai işlərində fəal iştirak edəcəklərini bildirdilər.

✍ *Azad*

# Azərbaycanda "İnsan hüquqları aylığı" elan olunub

**Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsmanın) "İnsan hüquqları aylığı"nın elan olunması ilə bağlı müraciət edib.**



Müraciətdə bildirilib ki, bu il də insan hüquqlarının müdafiəsi və təbliği sahəsində həyata keçirilən fəaliyyəti gücləndirmək, əldə olunmuş nailiyyətlər barədə ictimaiyyəti məlumatlandırmaq, mövcud problemlərin aradan qaldırılması ilə bağlı qarşıda duran vəzifələri müəyyən etmək, habelə əhalinin hüquq düşüncəsini və hüquq mədəniyyətini inkişaf etdirmək, ayrı-seçkiliyin yolverilməzliyininin zəruriliyini diqqətə çatdırmaq məqsədilə mayın 18-dən iyunun 18-dək ölkədə "İnsan hüquqları aylığı"nın elan olunması nəzərdə tutulur. "Məlumdur ki, hazırda Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən qlobal pandemiya elan olunmuş yeni növ koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində geniş yayılmasının qarşısının alınması məqsədilə Azərbaycan hökuməti tərəfindən xüsusi karantin rejimi tətbiq edilib, profilaktik və mübarizə xarakterli təxirəsalınmaz sosial izolyasiya tədbirlərinin həyata keçirilməsi davam etdirilir.

Azərbaycan Respublikasının Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilmiş müvafiq qərarlara əsaslanaraq ölkədə kütləvi tədbirlərin keçirilməsi də təxirə salınıb. Hesab edirik ki, əhali qruplarının hüquqi maarifləndirilməsi, xüsusilə də sağlamlıq hüquqlarının təbliğinə əsaslanan məlumatlandırma tədbirləri ilə yanaşı, pozulmuş hüquqların bərpasına və pozulmasının qarşısının alınmasına xidmət edən işlər canlı təmas olmadan, müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə edilməklə də həyata keçirilə bilər. Bu baxımdan, 2020-ci ilin 18 may - 18 iyun tarixlərini ölkədə "İnsan hüquqları aylığı" elan edərək dövlət qurumlarını, yerli özünüidarə orqanlarını, vətəndaş cəmiyyəti institutlarını, o cümlədən qeyri-hökumət təşkilatları və kütləvi informasiya vasitələrini təşəbbüsümüzə qoşulmağa dəvət edir, xüsusi karantin rejimi qaydalarına ciddi əməl etməklə elektron və yazılı mediada, teleradio kanallarında, sosial şəbəkələrdə insan hüquqlarının, o cümlədən sağlamlıq hüquqlarının təbliğinə dəstək verməyə, onlayn görüşlərin, videokonfransların keçirilməsini, bu mövzuda müxtəlif sosial çarxların hazırlanmasını tövsiyə edir, insanların müraciətlərinə, pozulmuş hüquqlarının bərpası məsələlərinə həssaslıqla yanaşmağa çağırıram", -deyə müraciətdə qeyd olunub.

✍ *Hafta.az*

# Pirallahıda pandemiyaya qarşı mübarizə tədbirləri davam etdirilir



**Pirallahı rayonunda koronavirusa yoluxma hallarının qarşısının alınması istiqamətində zəruri tədbirlər fasiləsiz olaraq davam etdirilir. Rayon rəhbərliyi tərəfindən xüsusi karantin rejiminin tələblərinə, habelə sanitar-epidemioloji normalara qeyd-şərtsiz əməl olunması üçün xüsusi qrafik hazırlanaraq, gücləndirilmiş iş rejiminə keçilmişdir.**

Rayonda Nazirlər Kabineti yanında Operativ Qərargahın sərəncam və tövsiyələrinə əsasən gücləndirilmiş iş rejimində çalışan Gigiyena və Epidemiologiya Mərkəzinin Pirallahı rayon şöbəsinin, Rayon Mənzil Kommunal-Təsərrüfatı Birliyinin mütəxəssisləri və əməkdaşları kütləvi dezinfeksiya işləri həyata keçirirlər. Onların birgə səyləri ilə dezinfeksiyaedici məhlullarla gün ərzində iki dəfə olmaqla, rayonun magistral və məhəlladaxili yolları, çoxmənzilli yaşayış binaları, qeyri-yaşayış obyektləri, həyətlər, fərdi yaşayış evləri, iznibati binaları mütəmadi olaraq dezinfeksiya olunur. Bu işlərin həyata keçirilməsi üçün Pirallahı rayon Mənzil Kommunal Təsərrüfat Birliyinə 60-dan çox canlı qüvvə cəlb olunub. Dezinfeksiya işlərinə cəlb olunmuş işçilərin hər biri lazımi püskürücü texnika, ləvazimatlar, xüsusi geyim formaları ilə təmin edilib.

Təəssüf ki, rayon ərazisində xüsusi karantin rejiminin tələblərini pozan şəxslər də olur ki, onlar barəsində Rayon Polis Şöbəsi tərəfindən tədbirlər görülür. Onlara xəbərdarlıq olunmaqla yanaşı, bəziləri cərimə edilir, həmçinin inzibati məsuliyyətə cəlb olunurlar. Cənab Prezident İlham Əliyevin tapşırığına əsasən xüsusi karantin rejimi dövrü ərzində Pirallahıda yaşayan 1000-dən çox aztəminatlı ailəyə, tənha və ahıl insanlara ərzaq bağlamaları paylanılmışdır və yardımlar vaxtaşırı olaraq davam etdirilir. Aksiyadan yararlanan hər bir aztəminatlı sakin koronavirus infeksiyasının dünyanı bürüdüyü bu çətin günlərdə onlara göstərilən diqqət və qayğıya görə Cənab Prezident dərin minnətdarlıqlarını bildirir və onun ətrafında sıx birləşməyə davam edəcəklərini vurğulayırlar.

✍ *Qələndər*

# Qobu Park yaşayış kompleksini içməli su ilə təmin etmək üçün yeni magistral kəmər çəkilib



**"Azərsu" Açıq Səhmdar Cəmiyyəti (ASC) Bakı şəhəri və ətraf qəsəbələrdə əhalinin içməli su təchizatının yaxşılaşdırılması məqsədilə layihələrin icrasını davam etdirir.**

ASC-nin Tədbirlər Planına uyğun olaraq məcburi köçkünlərin yaşadığı Qobu Park yaşayış kompleksini dayanıqlı içməli su ilə təmin etmək üçün yeni alternativ magistral su kəməri inşa olunub. ASC-nin İctimaiyyətlə əlaqələr şöbəsindən hafta.az-a bildirilib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə qaçqın və məcburi köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən işlər bu kateqoriyadan olan vətəndaşların diqqət və qayğı ilə əhatə olunduğunun bariz nümunəsidir. Qaçqın və məcburi köçkünlərin müasir tələblər səviyyəsində inşa edilən qəsəbələrə köçürülməsi məqsədilə ötən illərdə genişmiqyaslı layihələr həyata keçirilib. 2018-2019-cu illərdə istifadəyə verilmiş Qobu Park 1 və 2 yaşayış massivlərində zəruri kommunal infrastrukturlar yaradılıb. Qəsəbənin içməli su təminatı Kür-Bakı kəmərindən ayrılmış magistral xətt hesabına aparılıb. Yaxın vaxtlarda Qobu Park 3 yaşayış massivinin istifadəyə verilməsilə suya tələbat artacaq. Bu baxımdan məcburi köçkün şəhərciyinə yeni magistral su kəmərinin inşası qərara alınıb. Layihəyə əsasən, kompleksə içməli su Oğuz-Qəbələ-Bakı su kəmərindən ayrılan magistral xətdən veriləcək. Bu məqsədlə Qobu kəndi ərazisindən başlayaraq Qobu Park yaşayış kompleksinə 225 millimetr diametrli polietilen borularla 5,4 kilometr uzunluğunda magistral su xətti çəkilib. Artıq kəmərin tikintisi yekunlaşıb və kompleksin su anbarlarına birləşməsi verilib.

Hazırda magistral kəmərdə hidravlik sınaq işləri aparılır və kəmər yuyulub dezinfekasiya edildikdən sonra istismara buraxılacaq. Yeni alternativ kəmərin inşası Qobu Park yaşayış kompleksində yaşayan məcburi köçkünlərin içməli su təchizatının tam dayanıqlılığını təmin edəcək. Gələcəkdə xətlərin hər hansı birində planlı fasilə və ya qəza baş verdikdə sakinlər normal rejimdə içməli su ilə təmin olunacaqlar.

✍ *Hafta.az*

# Sağlamlıq imkanları məhdud uşaqlara onlayn qaydada sosial-psixoloji xidmətlər göstərilir

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Uşaq Bərpa Mərkəzi və Xüsusi Qayğıya ehtiyacı olan Uşaqların Dövlət Reabilitasiya Müəssisəsi tərəfindən xüsusi karantin rejimi ilə əlaqədar sağlamlıq imkanları məhdud uşaqlar üçün onlayn qaydada sosial-psixoloji xidmətlər göstərilir.**

Bu xidmətlər Nazirlik yanında Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidmətinin onlayn reabilitasiya xidmətləri ilə bağlı Tədbirlər Planına uyğun olaraq təşkil edilib. Hər iki Mərkəzin mütəxəssisləri tərəfindən sağlamlıq imkanları məhdud uşaqlar üçün onlayn qaydada psixoloq, loqoped, sosial sensor və inteqrasiya xidmətləri, eyni zamanda dərnək məşğələləri təşkil olunur. 100-dək uşaq bu xidmətlərlə əhatə olunub. Bu xidmətlərin təşkilinə onların valideynləri də cəlb olunur və onlara övladlarının reabilitasiyası ilə bağlı zəruri məsləhət və tövsiyələr verilir. Xüsusi rejimli karantin dövrü başa çatanadək uşaqlara onlayn formada sosial-psixoloji xidmətlərin göstərilməsi davam edəcək.

✍ *Hafta.az*

# Asqırma mövsümi allergiyanın əsas əlamətlərindən biridir

**Allergik xəstəliklər ilin bütün fəsillərində baş verə bilər. Lakin orqanizmdən asılı olaraq bəzi allergiyalar mövsümi xarakter daşıdığından əsasən yaz və payız aylarında özünü daha qabarıq şəkildə göstərir. Bahar fəsli başlayan kimi ağac və çiçəklərin tozlanması nəticəsində mövsümi allergiya əlamətləri özünü büruzə verir.**



Uşaq Bərpa Müalicə Mərkəzinin həkim-allerqoloqu Pərvanə Hüseynova bu barədə hafta.az-a deyib: "Mövsümi allergiyalar burun tutulması, burun axması, asqırma kimi əlamətlər olduğuna görə bəzən qrip kimi də qiymətləndirilir. Mövsümi qriplə koronavirus tamamilə fərqlidir. Mövsümi qrip zamanı öskürək olmur, göz sulanması, göz qaşınması, burun axıntısı olur, bayıra çıxarkən dalbadal asqırmalar baş verir. Koronavirusa yoluxmanın ilk 3-4 günündə heç bir əlamət olmur, sonra dərmanlara tabe olmayan yüksək hərarət, əsasən quru öskürək və onun ardınca pnevmoniyaya keçid baş verir. Koronavirusda asqırma nadir hallarda ola bilər".

Həkim-allerqoloq mövsümi allergiyalar zamanı gözlərdə sulanma olduqda mütləq şəkildə gün eynəklərindən istifadə etməyin lazım gəldiyini söyləyib: "Bu zaman apteklərdə satılan allergiya əleyhinə olan xüsusi gellərin burun ətrafına çəkilməsi maqnit rolu oynayır, ətrafdakı çiçək və ağac tozcuqlarını tutub saxlayır və onun nəfəs yollarına daxil olmasına mane olur. Qaşınma və qızartını aradan qaldırmaq üçün steroid tərkibli kremlərdən 5-7 gün istifadə etmək olar, lakin ondan çox istifadə edilməsi dəridə atrofiyaya səbəb ola bilər. Çiçək tozlanmaları adətən daha çox səhər tezdən saat 5-6 və axşam 6-7 radələrində yüksək olur və həmin saatlarda bağa, həyətə, parka çıxmamaq məsləhətdir. Qoruyucu kimi maskalardan da istifadə etmək olar, lakin bəzən maskaya qarşı da allergiya olur. Həm də maskalar ən geci 3 saatdan bir dəyişdirilməlidir". Həkimin verdiyi məlumata görə, tərkibində dadlandırıcı və boyayıcı maddələr olduğuna görə bəzən şirniyyatlar da allergiya verə bilər. Yaz allergiyası çox şiddətli və astmaya çevriləcək qədər təhlükəli olarsa, simptomatik müalicə ilə yanaşı onu törədən hansı bitki və toz olduğu aşkarlanandan sonra immunoterapiya vasitəsindən də istifadə olunur.

✍ *Hafta.az*

# Hədiyyəli yeni iPhone SE modelləri "Azercell Eksklüziv"lərdə!

**Ölkənin rəqəmsal həllər təqdim edən lider mobil operatoru "Azercell Telekom" Apple brendinin pərəstişkarlarına yeni sərfəli kampaniya təklif edir.**




Kampaniya çərçivəsində "Azercell Eksklüziv" mağazalarından yenilənmiş dizayna, güclü prosessor və kameraya malik iPhone SE smartfonunu əldə etmiş abunəçilər 6 ay ərzində hədiyyə olaraq hər ay 50 GB internet də əldə edəcəklər. "Azercell"in bu təklifi həm yeni, həm də mövcud fakturalı və fakturasız xətt abunəçiləri üçün keçərlidir.

"Apple" şirkətinin Azərbaycandakı yeganə rəsmi telekom tərəfdaşı "Azercell" abunəçilərinə iPhone SE smartfonlarını əldə edərkən ən qabaqcıl texnologiyaların imkanlarından yararlanmaq fürsətini təqdim edir. Azercell Eksklüziv mağazalarına müraciət edərək yeni növ iPhone SE modellərini müxtəlif rəngi və yaddaş ölçülərinə görə seçin və internetdən istifadə üçün möhtəşəm bonus əldə edin.

# "Şumer və türk dastanları" Avropada 8 dildə çap olunur

***Tanınmış şair, filologiya elmləri doktoru İslam Sadığın "Şumer və türk dastanları" kitabı keçən il Türkiyədə nəşr olunub. Həmin kitab Rusiyada və Almaniyada da satışdadır. Bu ilin yanvar ayında İslam Sadığa bir məktub gəldi. Həmin məktubda nəşriyyat İslam Sadığın sözügedən kitabının Avropa xalqlarının səkkiz dilində - ingilis, fransız, alman, italyan, ispan, danimark, polyak, portuqal və rus dillərində nəşr etməyi planlaşdırdığını və müəllifin razılığını istəyib. Sözsüz ki, İslam Sadıq bu xəbəri sevinclə qarşıladı və razılığını bildirdi.***




İslam Sadıq aprel ayının ortalarında nəşriyyatdan ikinci məktub aldı ki, burada kitabların artıq nəşrə hazırlandığını bildirir və onun öz bank hesabını göndərməsini istəyirlər. İslam Sadığa ünvanlanmış bu məktubları oxuduqdan sonra akademik Tofiq Hacıyev İslam Sadıq haqqında "Türk folklorunun Şumer yaşı haqqında tədqiqat" məqaləsini yazıb. Həmin məqalədən bir neçə cümləri xatırladıram: "Təkrar edirəm, İslam Sadığın "Şumer epik mətnləri və türk xalq yaradıcılığı ənənələri" əsəri bizim dastanşünaslığımızın tarixində Azərbaycan, geniş mənada türk xalq yaradıcılığının genetik başlanğıcı haqqında, dünyaya nə verib və dünyadan nə götürüb mövzusunda yeni sözdür.

Və ümumiyyətlə, müəllif müstəqil mühakimələr sahibidir və dedikləri elmdə möhür kimi qəbul olunur. ...İslamın bu tədqiqatında zəngin mühakimələr sistemi var. Bu mühakimələr onun özünə məxsusdur və inandırıcıdır. Buna elmdə dünyagörüşü deyirlər, konsepsiya deyirlər. Bu əsər ingiliscəyə, hətta rus dilinə tərcümə edilsə, türk xalq yaradıcılığının tarixi ilə bağlı mötəbər istinad mənbələrindən birinə çevrilə bilər". Akademik Tofiq Hacıyevin arzusu çin olub.

İslam Sadıq Azərbaycanda şumerşünaslığı bir elm kimi yaradıb və formalaşdırıb. "Şumer və türk dastanları" kitabında onun bu sahədəki araşdırmalarının az bir qismi toplanıb. Burada əsasən Şumer və türk dastanları müqayisəli şəkildə araşdırılıb və çoxlu oxaşr və eyni motivlər üzə çıxarılıb. Bu monoqrafiya Şumer və türk dastanlarının müqayisəli təhlilinə həsr edilmiş ilk sanballı tədqiqat işidir. Bununla İslam Sadıq türk folklorunun, ən azı, Şumerin yaşıdı olduğunu sübut etmişdir ki, Tofiq Hacıyev bu fikri öz yazısının başlığına çıxarmışdır.

İslam Sadığın bu kitabının Avropada 8 dildə nəşri Azərbaycan elminin və bütövlükdə türkologiyanın uğurudur.

*✍ Qələndər Xaçınçaylı*

# İyirmi ildə 60 min neft quyusu alan investor

**Qərbi Virciniyada orta gəlirli ailədə böyüyən Rusty Hutsonun həyatı bank karyerasını sonlandıraraq neft quyularına investisiya yatırmağa başladıqdan sonra dəyişib.**



ABŞ-ın Qərbi Virciniya əyalətinin qaz və neft yataqları ilə məşhur bölgəsində anadan olan R.Hutson atası, babası və atasının babası həyatlarını enerji sektorunda çalışmaqla davam etdiriblər. R.Hutson isə orta məktəb və universitet illərində yay aylarında atası ilə birgə işə gedərdi. 1991-ci ildə Hutson ailəsinin universiteti bitirən ilk üzvü olan Rusty həyatında fərqli bir iş görmək qərarına gəlir. Fairmont Dövlət Universitetinin mühasibatlıq ixtisasını bitirən Rusty gələcək illərdə uğurlu karyera əldə edib. Lakin illər keçdikcə atasının yolundan getmək fikri onu düşündürürdü.

"Qərbi Virciniyada iki növ insan var - kömür və neft-qaz işçiləri. Bu, nəsildən-nəslə ötürülən bir işdir, atanız və babanız nə iş görübsə, siz də onu edərsiniz", - deyə Rusty bildirir.

2001-ci ildə, Rusty 32 yaşında evini girov qoymaqla 250 min dollar dəyərində köhnə bir neft quyusunu alır. Bu gün isə onun şirkəti - "Diversified Gas & Oil"in Amerikanın müxtəlif yerlərində 60 mindən çox neft-qaz quyusu var. Şirkətdə 925 nəfər işləyir və illik gəlir 500 milyon dollardır.

Şirkətin iş modeli isə digər şirkətlərdən çox fərqlidir. "Diversified Gas & Oil" heç vaxt neft kəşfiyyatı və ya hasilat işləri görmür. Bunun əvəzinə böyük istehsalçıların işlətmədiyi köhnə neft və qaz quyularını alır. "Böyük şirkətlər istəməsələr də, bu quyuların daha 50 il ömrü var", - deyə Rusty əlavə edir.

Onun sözlərinə görə, "Diversified Gas & Oil" son illərdə Amerika şist qazının inkişafından böyük fayda əldə edib. Bu sektora yönələn digər şirkətlər köhnə quyuların çoxunu satmağa qərar verib.

"Diversified Gas & Oil" hazırda London birjasının əsas bazarına doğru irəliləyir. "Cenkos Securities" enerji sənayesi üzrə analitiki James McCormacın fikrincə, "Diversified Gas & Oil"in aşağı qiymətli və uzunömürlü neft quyularını almaq strategiyası unikal bir modeldir. Şirkətin uzunmüddətli planı isə istehsal müddətini başa vurmuş quyuların əvəzinə yeni neft quyuları almaqla işlərini başqa bölgələrdə də davam etdirməkdir.

# Müştəri hotel nömrəsindən çıxdıqdan sonra 2 gün oraya heç kəs buraxılmayacaq




**Hotel nömrələrindən istifadə edən müştəri hoteldən çıxş etdikdən sonra həmin otağa 48 saat müddətində heç kəs buraxılmayacaq. Hafta.az Trend-ə istinadən xəbər verir ki, bunu "Pandemiya dövründən sonra daxili turizmin inkişafı və region hotellərinin xüsusi hazırlığı" mövzusunda onlayn müzakirədə ölkənin aparıcı hotellərinin nümayəndələri bildiriblər.**

Qeyd edilib ki, artıq vətəndaş hotelə daxil olarkən, ilk növbədə ,xüsusi avadanlıqla onların hərarəti ölçüləcək. Müştəri ilə hotel personalı arasında sosial məsafənin saxlanılması təmin olunacaq. Eyni zamanda, hotel nömrələrindən istifadə edən müştəri hoteldən çıxş etdikdən sonra həmin otağa 48 saat müddətində heç kəs buraxılmayacaq. Yalnız bu müddət başa çatdıqdan sonra nömrə təmizlənib yeni müştərilərin istifadəsinə veriləcək.

Daha bir yenilk isə müştərilərə təqdim olunan səhər yeməklərində açıq bufetlərin ləğv olunması, masalar arasında minimum 2 metr məsafənin saxlanılması və sifarişlərin fərdi şəkildə hotel personalı tərəfindən qəbul olunmasıdır.

Artıq bunun üçün hotellər tərəfindən karantin dövründə işçi personalına xüsusi təlimlər də keçirilib.

Azərbaycan Turizm Agentlikləri Assosiasiyasının İdarə Heyətinin sədri Rüfət Hacıyev öz çıxışında karantin dövründən sonra daxili turizmin inkişaf etdirilməsi və vətəndaşlara daha sərfəli turizm xidmətləri göstərmək üçün turizm şirkətləri ilə hotellərin sıx əməkdaşlıq etməsinin vacib olduğunu bildirib.

O, pandemiyadan sonra daxili turizmə marağı artırmaq üçün turizm şirkətlərini və hotelləri yeni təkliflər üzərində işləməyə çağırıb.

# Yaşı 8-dən yuxarı olan uşaqların I sinfə qəbulu qaydası açıqlanıb

**Təhsil Nazirliyi yaşı 8-dən yuxarı olan uşaqların I sinfə qəbulu qaydasını açıqlayıb. Nazirlikdən hafta.az-a verilən məlumata görə, yaşı 8-dən yuxarı olan uşaqlar Təhsil nazirinin 29.05.2014-cü il tarixli, 645 nömrəli əmri ilə təsdiq edilmiş "Fərdi təhsilin təşkili haqqında Qaydalar"ın tələblərinə uyğun olaraq fərdi təhsilə cəlb olunurlar.**

Yaşı 8-dən yuxarı olan uşaqların valideynləri <www.mektebeqebul.edu.az> saytında qeydiyyatdan keçdikdən sonra 01.06.2020-ci il tarixindən həftənin II və IV günləri yaşayış yerindən arayış, 2 ədəd 3x4 rəngli fotoşəkil, valideynin (və ya qanuni nümayəndənin) və uşağın şəxsiyyətini təsdiq edən sənəd, ehtiyac yaranarsa, sağlamlıq haqqında arayışla (forma 26U) yerli təhsili idarəetmə orqanlarında yaradılmış müvafiq komissiyaya müraciət etməlidir. Valideynlərə həmin komissiyaya uşağı da özləri ilə gətirmələri tövsiyə olunur.

# "Azercell"in bölgələrdə yaşayan ailələrə dəstəyi davam edir!

**"Azercell Telekom" MMC koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar karantin dövründə xüsusi diqqət və qayğıya ehtiyacı olan insanlara, aztəminatlı ailələrə dəstəyini davam etdirir.**



Ötən iki həftədə olduğu kimi, müqəddəs Ramazan ayının üçüncü həftəsində də bölgələrdə sosial təcrid şəraitində yaşayan həssas kateqoriyalardan olan daha 1000 ailəyə ərzaq məhsullarından ibarət sovqat paylanıb.

"Azercell" xeyriyyə layihəsi çərçivəsində Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin təqdim etdiyi siyahıya əsasən müqəddəs Ramazan ayı ərzində ümumilikdə 4000 aztəminatlı ailəyə ərzaq payı göndərməyi nəzərdə tutur. Sovqatların ölkə boyu müxtəlif ünvanlara çatdırılması Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Azərpoçt" MMC tərəfindən həyata keçirilir.

Qeyd edək ki, şirkətin xeyriyyə təşəbbüslərinə Azercell əməkdaşları da qoşulub. Son iki həftə ərzində "Azercell Könüllüləri" öz növbəsində hər gün aztəminatlı ailələri ziyarət edib, onlara ərzaq yardımı paylayıb. Həssas zamanda vətəndaşlara dəstək olan "Azercell Könüllüləri" bu istiqamətdə öz fəaliyyətlərini davam etdirməyə hazırdır.

"Azercell" şirkətinin təşkil etdiyi yardım aksiyaları COVID-19 pandemiyası ilə əlaqədar xüsusi karantin rejiminin tətbiq olunduğu dövrdə həssas təbəqədən olan insanların sosial rifahını yüksəltmək, dövlət tərəfindən həyata keçirilən tədbirlərə dəstək vermək məqsədi daşıyır.

MƏDƏNİYYƏT

# "Waterloo" kompozisiyası "Eurovision" tarixində ən yaxşı mahnı seçilib

**Britaniyalı televiziya tamaşaçıları "Eurovision" müsabiqəsi tarixində ən gözəl mahnının adını müəyyən ediblər. Qalibin adı koronavirus pandemiyası səbəbindən ləğv olunan müsabiqənin yayımının əvəzində ekranlara çıxan "Eurovision: Come Together" proqramının efirində açıqlanıb.**



Səsvermənin nəticələrinə əsasən, ABBA qrupunun "Waterloo" kompozisiyası müsabiqə tarixində ən yaxşı mahnı seçilib. İsveç qrupu bu mahnını 1974-cü ildə İngiltərənin Brayton şəhərində keçirilən Eurovision müsabiqəsində ifa etmişdi.

Kompozisiya ekranlara çıxdığı andan etibarən müxtəlif ölkələrin hit-paradlarında ilk yerləri tutmuş, bütün dünyada 6 milyon nüsxə ilə yayılmışdı. "Eurovision-2020" mahnı müsabiqəsi may ayının ortalarında Roterdam şəhərində keçirilməli idi. Lakin Avropa Yayım Şurası koronavirus pandemiyası səbəbindən müsabiqəni ləğv edib və təşkilatçılar onun əvəzində online-şou keçirib.

İDMAN

# Del Pyero xəstəxanaya yerləşdirilib



**İtaliya millisinin və "Yuventus"un sabiq futbolçusu Alessandro Del Pyero xəstəxanaya yerləşdirilib. ABŞ-ın Los-Anceles şəhərində müalicəyə alınan futbol veteranının böyrəklərində daş aşkarlanıb.**

Bunu Alessandronun özü açıqlayıb. O, sosial şəbəkədəki paylaşımında xəstəxanaya düşməsinin koronavirusla bağlılığı olmadığına aydınlıq gətirib: "Hələ də inana bilmirəm ki, belə balaca 3 millimetrlik şey bu qədər problem yaratsın".

Qeyd edək ki, 1993-2012-ci illərdə "Yuventus"da oynayan Del Pyero 6 çempionluq, bir kubok, dörd Superkubok qazanıb, Çempionlar Liqasının qalibi olub.

# İbrahimoviçin heykəlinin yeri dəyişdirilir

**"Milan"ın hücumçusu Zlatan İbrahimoviçin Malmö şəhərindəki heykəlinin yeri dəyişdiriləcək. Hafta.az xəbər verir ki, heykəlin köçürülməsinə səbəb, onun bir neçə dəfə vandalizmə məruz qalmasıdır.**



Malmö bələdiyyəsi heykəlin yerinin dəyişdirilməsi üçün "Malmö" klubunun icraçı direktoru Niklas Karlnenlə müzakirəyə başlayıb. İbrahimoviçin keçmiş klubu "Malmö"nün stadionu yaxınlığındakı heykəli bir neçə dəfə vandalizmə məruz qalıb. Buna səbəb, İbrahimoviçin İsveçin digər klubu "Hammarby"nin səhmlərinin bir hissəsini alması olub.

# Prezident La Liqanın bərpa tarixini açıqladı



**İspaniya La Liqasının prezidenti Xavyer Tebas Almaniya Bundesliqasının bərpa edilməsinə münasibət bildirib. 57 yaşlı funksioner La Liqanın mümkün başlama tarixini də açıqlayıb:**

"Mən çox xoşbəxtəm. Bundesliqanın baş direktorunu təbrik etdim. Çox önəmli iş gördülər və mən onların adına qürur duyuram. Bu, hamımız üçün bir nümunədi. İspaniya çempionatının ən qısa müddətdə bərpa edilməsini istəyirəm. Diqqətimizi 12 iyun tarixinə yönəltmişik.

İndiki halda azarkeşlərlə bağlı məsələlər müzakirə mövzusu deyil. Oyunçulara fokuslanmışıq. Hər yeni etapda ətrafdakı insanların sayı artacaq və biz diqqətli olmağa məcburuq. Təhlükəsizlik tədbirlərimiz sayəsində məşqlərdə koronavirusa yoluxmaq, demək olar ki, mümkünsüzdür".

# "Yuventus" "Barselona"nın təklifini rədd etdi

**"Yuventus" və "Barselona" razılığa gələ bilmirlər. Kataloniyalılar Mattia De Şilyo və Miralem Piyaniç üçün Turin təmsilçisinə Nelson Semedo ilə yanaşı, 25 milyon avro təklif edib.**



Məlumata görə, İtaliya klubu bu təklifi rədd edib. "Yuventus" bosniyalı futbolçunu Artur Melonun əvəzinə İspaniyaya buraxa bilər. "Barselona" isə braziliyalını heyətdə saxlamaq niyyətindədir. Bununla yanaşı, turinlilərin Semedo ilə maraqlanmadığı bildirilir. Pyaniç 2019/20 mövsümündə "Yuventus"da 32 oyun keçirib və 3 qol vurub.

# Maykl Cordanın ayaqqabısı hərracda 560 min dollara satılıb

**Milli Basketbol Assosiasiyasının (MBA) əfsanəvi basketbolçusu Maykl Cordanın ayaqqabısı satılıb. Cordanın 1985-ci ildə "Çikaqo" ilə MBA-dakı ilk mövsümündə geyindiyi ayaqqabı hərraca çıxarılıb.** "Sotheby" şirkətinin internet vasitəsilə satışa çıxardığı oyun ayaqqabısı gözləniləndən 4 dəfə baha - 560 min dollara satılıb. Bu, həm də bir cüt ayaqqabı üçün verilən ən yüksək məbləğ kimi rekord qırıb. Qeyd edək ki, Maykl Cordan karyerası ərzində 6 dəfə (1991-1993, 1996-1998) MBA çempionu olub.